# Azərbaycan Prezidenti: Qarabağ münaqişəsi keçmişdə qaldı!



Səhifə 2

# Səs

№ 189 (6389) 16 oktyabr 2021-ci il. Qiyməti 40 qəpik

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında iştirak edib.**



## "Ermənistanın mühakimə olunmasını və təzminat ödəməsini istəyirik"

6



## Nataliya Portyakova: "Azad olunmuş ərazilər adamı qorxudur"

9

# Müstəqillikdən tərəqqi və inkişafa gedən tarixi yol!

*Xalqımız bu il öz tarixi bir gününü - 18 Oktyabr tarixini böyük qələbə ilə qeyd edir. 18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyinin bərpa olunduğu tarixi gündür. Düz 30 il bundan əvvəl elan olunan 18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günü xalqımızın tarixinə həkk olundu. Azərbaycan xalqı ötən əsrin əvvəlində müstəqil respublika qurmuş, 1991-ci ildə isə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi öz müstəqilliyini bərpa etmişdir. Beləliklə, 1918-ci ildə İstiqlal Bəyannaməsinin qəbul olunduğu 28 may Azərbaycan Respublikasında müstəqillik günü, 1991-ci ildə "Azərbaycan Respublikasının...*




8

Bax 3



## Leyla Əliyeva: "Arzum budur ki, Tahir Salahovun zəngin irsi bundan sonra da xalqlarımızı yaxınlaşdırmaqda davam etsin"



# Messi hakimi topa tutdu: O bunu qəsdən edir

16

*Lionel Messi DÇ-2022-nin Argentina - Peru oyununun (1:0) baş hakimi Vilton Sampayonun işindən narazı qalıb. Qol.az-ın "Marca" nəşrinə istinadən verdiyi xəbərə görə, Argentina millisinin kapitanının fikrincə, Sampayo Perunun lehinə şübhəli qərarlar verib. Matçdan sonra Messinin Sampayonun ünvanına bu sözləri dediyi bildirilir:*

## Maksim Şevçenko: "ATƏT-in Minsk qrupu tarixi ədalət üçün heç bir iş görməyib"



*"ATƏT-in Minsk qrupu tarixi ədalətin bərqərar olması üçün heç bir iş görməyib". Bunu "Report"un Rusiya müxbirinə rusiyalı politoloq, jurnalist, aparıcı və ictimai xadim Maksim Şevçenko Azərbaycan, Rusiya və Ermənistan XİN başçıları arasında Minskdə keçirilmiş üçtərəfli görüşü şərh edərkən bildirib...*

Səhifə 9

## Düşmən təxribatı davam edir: ermənilər arasında nə qədər itki var?





## Uşaqları məktəbdə virusdan necə qorumalı? - HƏKİM İZAH ETDİ

15



## Azərbaycanda vərəm ən çox hansı bölgələrdə yayılıb?

16

# Azərbaycan Prezidenti: Qarabağ münaqişəsi keçmişdə qaldı!

*Prezident İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında iştirak edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında iştirak edib.**



AZƏRTAC xəbər verir ki, Belarus Prezidenti Aleksandr Lukaşenko iclasın gündəliyi barədə məlumat verdi, ölkəsinin MDB-yə sədrliyi dövründə həyata keçirilən tədbirlərdən danışdı və üzv ölkələrə Belarusa təşkilata rəhbərliyi dövründə göstərdikləri dəstəyə görə minnətdarlıq etdi. Belarus Prezidenti bildirdi ki, Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən bu iclası MDB-nin yaradılmasının 30 illiyi ərəfəsində təşkil edildiyi üçün əlamətdardır.

## *İlham Əliyev: Azərbaycan sərhədlərin delimitasiyasına dair Ermənistanla danışıqlara başlamağa hazırdır*

Prezident Aleksandr Lukaşenko dedi: Ənənəyə uyğun olaraq, müzakirələrimizin əvvəlində sözü Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə vermək istərdim. İlham Heydəroğlu, xahiş edirəm, çıxış edəsiniz. Dövlətimizin başçısı iclasda çıxış etdi.

Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib, BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin Azərbaycan ərazisindən dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb edən qətnamələrini yerinə yetirib və Azərbaycan Ermənistanla münaqişəni hərbi-siyasi yolla həll edib:

-Sağ olun, hörmətli Aleksandr Qriqoryeviç.

Onlayn rejimdə bugünkü sammitimizin təşkilinə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

COVID ilə bağlı çətinlikləri hamımız başa düşürük. Ona görə, bu cür ünsiyyət forması bir növ ənənəyə çevrilir, lakin ümid edirəm ki, yaxın vaxtlarda ölkələrimizdə COVID ilə bağlı vəziyyət daha sabit olanda öz həmkarlarımı görəcəyəm.

## *İlham Əliyev Qarabağda hərbi əməliyyatların dayandırılmasında Prezident Vladimir Putinin xüsusi rolunu qeyd edib*

Hörmətli Aleksandr Qriqoryeviç, hörmətli dövlət başçıları, həmkarlar.

Müharibənin başa çatmasından, Vətən müharibəsində Azərbaycanın Qələbəsindən bir il keçməsi ilə əlaqədar bizim regionda yaranmış vəziyyət barədə sizi məlumatlandırmaq istərdim. Bu bir il ərzində nələr baş verməsi, qarşımızda duran çağırışlar və regional inkişafın perspektivləri barədə informasiyanı sizə təqdim etmək istərdim.

Bütövlükdə postmünaqişə dövrü sakit keçir. Ona görə "postmünaqişə dövrü" deyirəm ki, Dağlıq Qarabağ münaqişəsi keçmişdə qalıb. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib, BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin Azərbaycan ərazisindən dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb edən qətnamələrini yerinə yetirib və Azərbaycan Ermənistanla münaqişəni hərbi-siyasi yolla həll edib. 2020-ci il noyabrın 9-dan 10-na keçən gecə Rusiya, Azərbaycan prezidentlərinin və Ermənistanın baş nazirinin üçtərəfli Bəyanatı imzalandı. Bu Bəyanat Ermənistan-Azərbaycan münaqişəsinə son qoydu. Hərbi əməliyyatların dayandırılmasında Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinin xüsusi rolunu bir daha qeyd etmək istərdim. Bu, hər iki tərəfdən minlərlə insanın ölümündən qaçmağa imkan verdi. Üçtərəfli Bəyanata müvafiq olaraq, Ermənistan öz işğalçı qüvvələrini Azərbaycanın Ağdam, Laçın və Kəlbəcər rayonlarının işğal edilmiş hissəsindən çıxardı. Bundan əvvəl Azərbaycan Silahlı Qüvvələri 300-dən çox şəhəri və kəndi döyüş meydanında azad etdi. Beləliklə, artıq qeyd etdiyim kimi, münaqişə hərbi-siyasi yolla həll edildi. Həmçinin üçtərəfli Bəyanata müvafiq olaraq Azərbaycanın Qarabağ regionuna Rusiya sülhməramlıları yerləşdirildi. Nəqliyyat kommunikasiyalarının açılması ilə bağlı məsələlərin həll edilməsi üçün Rusiya, Azərbaycan və Ermənistanın baş nazirlərinin müavinlərinin həmsədrliyi ilə işçi qrup yaradıldı. Azərbaycanın Ağdam rayonunun ərazisində Azərbaycan tərəfi Rusiya-Türkiyə monitorinq mərkəzi yaratdı.

Hazırda Azərbaycanın qarşısında duran əsas problemlər azad edilmiş ərazilərin minalardan təmizlənməsi və dağıdılmış infrastrukturun, binaların, evlərin, Azərbaycan xalqının tarixi abidələrinin bərpasıdır. Müharibədən sonra 150-dən çox vətəndaş minaya düşərək həlak olub, yaxud ciddi xəsarətlər alıb. Ermənistan minalanmış sahələrin tam xəritələrini bizə verməkdən imtina edir. Azərbaycana verilmiş az sayda xəritələrin dəqiqliyi təqribən 25 faizdir. Azad edilmiş ərazilərdə təqribən 30 illik işğal dövründə demək olar ki, bütün binalar və tarixi abidələr dağıdılıb. Azad edilmiş ərazilərdəki 67 məsciddən 65-i tamamilə dağıdılıb. Qismən dağıdılmış qalan iki məsciddə işğalçılar donuz və inək saxlayır, müsəlmanların heysiyyətini qəsdən təhqir edirdilər. Füzuli şəhərində və Füzuli rayonunun bütün kəndlərində binalar və evlər 100 faiz dağıdılıb. Ağdam şəhərində və Ağdam rayonunda da eyni vəziyyətdir. Ağdam şəhəri "Qafqazın Hirosiması" adlandırılır. Cəbrayıl rayonunda cəmi 2 bina salamat qalıb, orada Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçuları yerləşirdi. Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarında da oxşar vəziyyətdir. Şuşa şəhərində işğala qədər mövcud olan 17 məsciddən 16-sı Ermənistan tərəfindən dağıdılıb. Bir məscid "tolerantlıq" nümayiş etdirmək üçün saxlanılıb və İrandan olan qondarma mütəxəssislərin köməyi ilə onu fars məscidi kimi təqdim etməyə cəhd göstərilib. Evlər və ictimai binalar kərpic-kərpic, daş-daş sökülüb, Ermənistana və İrana satılıb. Azərbaycan ərazilərində vandalizmin izləri belədir. Təbiətə çox böyük ziyan vurulub, 60 min hektara yaxın meşə qırılıb, doğranıb, Ermənistana və İrana satılıb. Qızıl yataqları və digər təbii ehtiyatlar qanunsuz istismar edilib. Transsərhəd Oxçuçay çayı bir Avropa şirkətinin iştirakı ilə sistematik olaraq çirkləndirilirdi, bu da artıq nüfuzlu beynəlxalq ekspertlər tərəfindən təsdiq edilmiş ekoloji fəlakətə gətirib çıxarıb. İşğal edilmiş ərazilərdə real mənzərə belədir. Azad edilmiş ərazilərdə bir ildən az müddətdə bir çox ölkələrdən olan minlərlə siyasətçi, diplomat və jurnalist, o cümlədən MDB ölkələrinin nümayəndələri bunları görüblər. Azərbaycan İranla dövlət sərhədinin təqribən 30 il müddətində Ermənistanın nəzarəti altında olmuş 130 kilometrlik hissəsində nəzarəti ötən bir ildə bərpa edib və beləliklə, İrandan Azərbaycanın Cəbrayıl rayonundan keçməklə Ermənistana və daha sonra Avropaya narkotrafik marşrutunu bağlayıb. Azərbaycan-İran sərhədinin digər sahələrində bizim tutub saxladığımız heroinin həcmi əvvəlki illərin müvafiq dövrü ilə müqayisədə iki dəfə artıb. Bu, o deməkdir ki, təqribən 30 il müddətində Ermənistan İranla əlbir olaraq Azərbaycanın o vaxt işğal altındakı ərazilərindən Avropaya narkotrafik üçün istifadə edib.

## *Prezident İlham Əliyev: Azərbaycan İrandan Ermənistana və daha sonra Avropaya narkotrafik marşrutunu bağlayıb*

Mən işğal illərində dəfələrlə bəyan etmişdim ki, işğal olunmuş ərazilərdən narkotrafik məqsədilə və beynəlxalq terrorçuların hazırlanması üçün istifadə edilir. Bu gün bu, sübut edilmiş faktdır. Belə adlandırılan "erməni hərbi əsirlər" məsələsinə də toxunmaq istərdim. Azərbaycan müharibə dövründə tutulub saxlanılmış bütün hərbi əsirləri Ermənistanın azərbaycanlı hərbi əsirləri bizə verməsindən daha əvvəl verib. Üçtərəfli Bəyanat imzalanandan iki həftədən çox sonra, keçən il noyabrın axırlarında 62 nəfərdən ibarət təxribat qrupu Ermənistanın Şirak regionundan Azərbaycan Silahlı Qüvvələrinin arxa hissəsinə, artıq işğaldan azad edilmiş ərazilərdə təxribatlar törətmək üçün göndərilmişdi. Azərbaycan hərbi qulluqçuları həmin qrupu tutaraq tərk-silah etdi. Beynəlxalq konvensiyalara müvafiq olaraq bu təxribatçılar hərbi əsir hesab edilə bilməz.

Müharibə və münaqişə tarixdə qaldı. Biz, ərazi bütövlüyünün qarşılıqlı tanınması şərti ilə sərhədlərin delimitasiyasına dair Ermənistanla danışıqlara başlamağa hazırıq, həmçinin Ermənistan ilə sülh sazişinə dair danışıqlara başlamağa hazırıq. Azərbaycan qalib ölkə kimi münasibətləri normallaşdırmağa hazırdır. Ümidvarıq ki, Ermənistan rəhbərliyi bu tarixi şansı əldən verməyəcək.

# Leyla Əliyeva: "Arzum budur ki, Tahir Salahovun zəngin irsi bundan sonra da xalqlarımızı yaxınlaşdırmaqda davam etsin"



**_Oktyabrın 14-də Moskvada, Xalq Təsərrüfatı Nailiyyətləri sərgisinin "Azərbaycan" pavilyonunda SSRİ-nin, Azərbaycanın və Rusiyanın Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı Tahir Salahovun xatirə gecəsi və onun əsərlərinin sərgisi keçirilib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib._**







AZƏRTAC xəbər verir ki, tədbir çərçivəsində Raya Abbasovanın müasir dövrün görkəmli sənətkarının həyat və fəaliyyətindən bəhs edən "Dialoq" kitabının təqdimatı keçirilib. Böyük sənətkarın nəvəsi Kayxan Salahov tərəfindən hazırlanmış "Sonsuzluq" adlı videoinstalyasiya da qonaqlara təqdim edilib.

Tədbirdə çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bildirib ki, Tahir Salahov öz yaradıcılığı ilə bütün dünyanı fəth etdiyinə baxmayaraq, onun həyatının əsas hadisələri məhz Rusiyada və Azərbaycanda baş verib:

-Görkəmli rəssam Tahir Teymur oğlu Salahovun xatirə gecəsində sizi salamlamağa çox şadam. Bu, çox rəmzi haldır ki, bugünkü tədbir Moskvada, Xalq Təsərrüfatı Nailiyyətləri sərgisinin "Azərbaycan" pavilyonunda keçirilir. Doğma Bakı kimi Moskva şəhəri də Tahir Teymur oğlu üçün çox əziz idi. Tahir Salahov öz yaradıcılığı ilə bütün dünyanı fəth etdiyinə baxmayaraq, onun həyatının əsas hadisələri məhz Rusiyada və Azərbaycanda baş verib. Onun nadir yaradıcılıq üslubu və xarakteri məhz burada formalaşıb. İncəsənət dünyanı gözəlləşdirir. Tahir Salahovun yaradıcılığı sayəsində biz onun dünyasını - harmoniya və xoş duyğularla dolu nurlu dünyanı görürük. Biz xoşbəxtik ki, bu heyrətamiz insanla bir dövrdə yaşamışıq, onunla tanış olmuşuq, ünsiyyət saxlamışıq. Onun sənətini fərqləndirən məhz sevgidir - Vətənə, təbiətə, insanlara sevgi. Tahir Salahovun qəhrəmanları onun müasirləri, neftçilər, yazıçılar, bəstəkarlardır. O, obrazlar yaratmır, insanlar yaradırdı. Ona görə də onun əsərlərinə baxanda inanırıq və hiss edirik ki, bunlar canlı əsərlərdir, həyatın özü kimi canlıdır.

Bu gün bizimlə olduğunuza görə sizə təşəkkür edirəm. Tahir Salahovun ailəsinə, Zelfira İsmayılovna, sizə bizi dəstəklədiyinizə görə, bu tədbirin hazırlanmasında iştirak etmiş, ona qəlbinin bir hissəsini qoymuş insanların hamısına təşəkkür etmək istəyirəm. Arzum budur ki, Tahir Salahovun zəngin irsi bundan sonra da xalqlarımızı yaxınlaşdırmaqda davam etsin, gənc istedadlara yol açsın.

Sizin hamınıza xoşbəxtlik, cansağlığı arzu edirəm, ən xoş diləklərimi bildirirəm. Sağ olun.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu bu tədbirin təşkilinə görə Heydər Əliyev Fonduna təşəkkürünü bildirərək qeyd edib ki, Heydər Əliyev Fondu və onun Rusiyadakı nümayəndəliyi Azərbaycan ilə Rusiya arasında qarşılıqlı münasibətlərin möhkəmlənməsi üçün Tahir Salahov kimi çox iş görür: "Unudulmaz rəssam, unudulmaz insan, möhtəşəm filosof. Görünür, həyatda mənim çox bəxtim gətirib ki, 1960-cı illərin əvvəlindən başlayaraq biz ünsiyyətdə olmuşuq, çoxsaylı səfərlərdə olmuşuq, sovet dövründə, 1968-ci ildə Meksika kimi unikal ölkədə 20 gün bir yerdə olmuşuq. Bu, unudulmaz günlər idi. Həmin günlər həmişəlik yaddaşımızda qalıb."

Dövlət Tretyakov qalereyasının baş direktoru Zelfira Trequlova Tahir Salahov ilə yaxından tanış olduğunu söyləyib. O deyib: "Ona bir insan kimi hədsiz hörmət edirdim və bir rəssam kimi onun qarşısında baş əyirdim. Mən Tretyakov qalereyasına gələndə uzun illər boyu düşündüyüm və arzuladığım bir işi görməyə nail oldum. Bu, Tretyakov qalereyasında Tahir Teymuroviçin əsərlərinin parlaq retrospektivi idi. 2016-cı ildə Tahir Salahovun Tretyakov qalereyasında ilk sərgisi açıldı. Tahir Salahov böyük rəssam olmaqla bərabər, həm də qeyri-adi zahiri və daxili gözəlliyə malik, inanılmaz dərəcədə müdrik və eyni zamanda, çox təvazökar və nəzakətli adam idi".

Tahir Salahovun nəvəsi rəssam Kayxan Salahov böyük ustada həsr edilmiş "Sonsuzluq" adlı videoinstalyasiyanı təqdim edib. K.Salahov AZƏRTAC-ın müxbiri ilə söhbətində qeyd edib ki, bu iş gənc nəslin diqqətini Tahir Salahov yaradıcılığına cəlb etməlidir.

Tədbir iştirakçılarının diqqətinə təqdim edilmiş, "Dialoq" kitabının müəllifi Raya Abbasova söhbətində bildirdi ki, Tahir Salahov ilə onun tanışlığı çoxdan başlamışdı. R.Abbasova dedi: "2000-ci illərin əvvəlində mən ondan ilk müsahibə aldım. Sonradan dəfələrlə görüşdük. Tahir Teymuroviçin 90 illiyinə həsr edilmiş kitab üzərində işləmək mənə təklif olunanda məmnuniyyətlə razılıq verdim. Tahir Teymuroviç haqqında kitab yaratmaq ideyasına görə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevaya hədsiz minnətdaram".

Sərginin ekspozisiyasında rəssamın şəxsi arxivlərdə saxlanılan işləri, ailə albomundan fotoşəkillər təqdim olunub. Tədbirdə Azərbaycanın və Rusiyanın görkəmli mədəniyyət xadimləri iştirak ediblər.






# 17 oktyabr növbəti qələbə müjdəsi - Füzuli işğaldan azad edildi!!!



Prezident İlham Əliyev: "Böyük hərbi peşəkarlıq və rəşadət nəticəsində biz Füzulini işğalçılardan azad etdik!"

***Azərbaycan Prezidenti, Qalib Lider "Dəmir yumruq" siyasəti ilə Azərbaycanın şanlı Ordusunun əsgər və zabitlərinin rəşadəti ilə 1993-cü il 23 avqust işğal tarixinin üstündən bir xətt çəkərək, üzərinə 2020-ci il 17 oktyabr zəfərini yazdı. Bəli, Ordumuz 17 oktyabr növbəti qələbə müjdəsi - Füzuli işğaldan azad edildi.***

Bu gün bu qələbələrimizlə hər gün, hər an Azərbaycan Prezidenti, Ali Baş komandan İlham Əliyev xalqımıza qələbə sorağını verdikcə,





Liderimizlə, Güclü Ordumuzla, qəhrəman, igid əsgərlərimiz, həmçinin, xalqımızla qürur duyuruq. Dövlət başçımızın Vətən Müharibəsinin 24-cü günündə xalqımıza növbəti qələbə müjdəsini - "Bu gün Füzuli şəhəri və rayonun bir neçə kəndi işğalçılardan azad edilib" verdi.

Qeyd edək ki, ilk gündən bu günə kimi - İkinci Vətən Müharibəsinin 44 günü ərzində xalqımıza verdiyi qürur doğurucu xəbərləri bizə yaşadan Liderimiz öz xalqı, qüdrətli Ordusu və rəşadətli əsgərləri ilə fəxr etdiyini, qürur duyduğunu deyir. Ancaq bütün bunlara Ali Baş Komandanımız, dövlətimizin başçısı İlham Əliyev cənablarının düşünülmüş uğurlu siyasəti - "Dəmir yumruq" əməliyyatı ilə nail olduq və bu gün də oluruq.

### 17 oktyabr - Azərbaycan dövlətinin tarixində əbədi qalacaq

Bəli, Azərbaycan dövlətinin və xalqının tarixinə yazılan 17 oktyabr. Azərbaycanın Füzuli şəhəri işğaldan azad etdiyi gün. Dövlət başçısı xalqa müraciətində qeyd edib ki, Şanlı Azərbaycan Ordusu öz xilaskarlıq missiyasını uğurla davam etdirir: "Son günlər ərzində mən xalqıma xəbər verərək, yeni azad edilmiş kəndlərin adlarını açıqlamışdım. Bu gün də böyük məmnunluq, böyük sevinc hissi ilə azad edilmiş növbəti yaşayış məntəqələrinin adlarını əziz xalqıma çatdırmaq istəyirəm. Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib - Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!"

Dövlət başçısı deyib ki, 17 oktyabr Azərbaycan xalqının, füzulililərin, Azərbaycan dövlətinin tarixində əbədi qalacaq: "Bu gün biz hamımız, bütün Azərbaycan xalqı xalqımızın, dövlətimizin ən parlaq səhifəsini yazırıq, birlikdə yazırıq. Biz bu gün həmrəylik, qarşılıqlı dəstək, birlik göstərərək bu şanlı tarixi yazırıq. Biz xoşbəxtik ki, bu anları yaşayırıq. Ancaq bu anları səbirsizliklə gözləyən, həyatdan gedən on minlərlə bizim qaçqın, köçkünümüz əfsuslar olsun ki, bu günləri görməyib. Ancaq bu gün əminəm ki, onların ruhu şaddır. Çünki onların doğma dədə-baba torpaqları işğalçılardan azad edilib".

"Baxmayaraq ki, namərd, xain, alçaq düşmən hərbi cinayətlər törədir, dinc əhalini atəşə tutur, bugünkü atəş nəticəsində azyaşlı uşaqlar da həlak olub, mən bir daha demək istəyirəm ki, biz qisasımızı mülki vətəndaşlardan almamalıyıq. Biz döyüş meydanında qisasımızı alırıq, alacağıq, şəhidlərimizin, həlak olanların qanı yerdə qalmır və qalmayacaqdır",-deyən Azərbaycan Prezidenti bir daha Ermənistanın faşist rəhbərinə sərt xəbərdarlığını edib: "Bir daha Ermənistanın faşist rəhbərliyinə xəbərdarlıq edirəm ki, qalan torpaqlardan öz xoşu ilə çıxsın. Onsuz da biz onları oradan rədd edəcəyik. Onsuz da onların izi-tozu da o torpaqlarda qalmayacaq. Onsuz da onları biz sona qədər qovub torpağımızdan rədd edəcəyik. Öz xoşu ilə getsin!"

### "Füzuli əməliyyatı rəmzi məna daşıyır"

"Füzuli əməliyyatı rəmzi məna daşıyır. Bizim tarixi, qədimi yaşayış məskənimizi Azərbaycan özünə qaytardı, on minlərlə insanın o yerlərə qayıtmasını təmin etdi. Eyni zamanda, strateji nöqteyi-nəzərdən Füzulinin təmas xəttində yerləşən bir neçə müdafiə xəttinin yarılması bizə növbəti strateji üstünlüklər verir. Çünki Füzuli istiqamətində yerləşən bizim hərbi qüvvələrimiz bu günlər ərzində orada döyüşlər aparırdı",-deyən dövlət başçısı bildirib ki, böyük hərbi peşəkarlıq və rəşadət nəticəsində biz Füzulini işğalçılardan azad edə bildik: "Bütün bu qələbələr Azərbaycan Ordusunun və rəşadətli əsgərlərimizin döyüş qabiliyyətinə və texniki təminata malik olduğunun göstəricisidir". Bu məqamda dövlət başçısını Azərbaycan televeziyasına verdiyi müsahibəsi zamanı dediyi fikirləri bir daha vurğulamaq istərdim: "Mən Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarında, Şuşa şəhərində olmuşam. Ağdam şəhəri tamamilə dağıdılıb. Bir dənə də salamat bina yoxdur. Bir yarıdağılmış məscid qalıb, onu da ermənilər təhqir ediblər. Füzuli şəhərində bir dənə də bina yoxdur. Bir üç-dörd mərtəbəli hərbi hissənin binasıdır. Cəbrayıl şəhərində, şəhərin girəcəyində bir hərbi hissə var, şəhər yoxdur. Qubadlı və Zəngilanda bir neçə ev sadəcə olaraq qalıbdır, özü də yarıdağılmış vəziyyətdə...Bu talançılıq, bu vəhşilik, bu düşmənçilik bütün dünyanın diqqətini cəlb etməlidir...Biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz erməni faşizmini məhv etmişik, erməni vəhşiliyini məhv etmişik".

Bir də nəyi, necə və nə zaman etməyi yaxşı bilən müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev nə xoş ki, bu gün ölkənin baş memarı kimi düşmənin viran qoyduğu xarabalıqlar üzərində yeni və müasir Qarabağ qurur. Bir il arxada qaldı. Amma Zəfər yürüşü davam edir. Qarabağda genişmiqyaslı abadlıq, quruculuq işləri gündən-günə vüsət alır. Dünən əlində silah düşməni doğma yurd yerlərimizdən qovan oğullarımız bu gün daş üstə daş qoyub min bir həvəslə yeni Qarabağ tikib-qurur. Əlləriniz var olsun, istəyiniz, arzunuz gerçəkləşsin!

### Füzulidə tikinti-quruculuq abadlıq işləri davam edir

İşğaldan azad olunan bütün rayonlarımız kimi Füzuli rayonu da dövlətin diqqət və qayğısı ilə daim əhatə olunub. Bu gün Füzuli rayonun işğaldan azad olunmuş ərazisində də tikinti-quruculuq abadlıq işləri davam edir. Əhalinin sağlamlığının qorunmasının və göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi məqsədi ilə rayonun Bala-Bəhmənli kəndi ərazisində müasir tipli Mərkəzi rayon Xəstəxanasının inşası hal-hazırda davam etməkdədir. Bununla yanaşı kənd təsərrüfatı məhsullarının istehsalı və emalı istiqamətində iri miqiyaslı, müasir standartlara cavab verən Aqroparkın, Horadiz şəhərində Dövlət Bayrağı Meydanının ərazisində Bayraq Muzeyinin, Heydər Əliyev Fondunun hesabına Bala Bəhmənli kənd tam orta məktəbinin, Arayatlı, Əhmədbəyli və Mahmudlu-2 kəndlərində uşaq bağçalarının, Aşağı Yağlıvənd kəndi ərazisində barama qurutma məntəqəsinin, Əhmədalılar kəndində 35 fərdi yaşayış evinin, kərpiç evlər adlanan ərazidə məskunlaşan məcburi köçkün ailələri üçün 95 evin tikintisi davam edir.

### Füzuli aeroportunun "işıq sürəti ilə" inşasının daha bir sirri -düşmənə mesaj

Azərbaycan dövləti düşmənə Füzulinin artıq tarixə dönən işğal günündə müasir səviyyəli beynəlxalq hava limanına döyüş təyyarələrini endirməklə cavab verdi; F 16-lar üçün ideal imkanların yaradıldığı daha bir ünvan; uzunluğu 3 km, eni 60 metr olan uçuş enmə zolağı, 60 min kv.metrlik 8 hava gəmisinin dayanması üçün sahədən ibarət olan hava limanının açılışına günlər qaldı; polkovnik: "Ora təkcə F-16-lar deyil, ağır tonnajlı hərbi yük təyyarələri də enəcək". Son 28 ildə ilk dəfə Füzuli və Cəbrayıl rayonlarının işğal tarixini geniş şəkildə qeyd etmədik, çünki artıq Qarabağın digər əraziləri kimi, bu yaşayış məntəqələri də düşməndən azad edilib. Üstəlik, Müzəffər Ordumuzun böyük zəfərindən keçən müddət ərzində Qarabağın yenidən qurulması istiqamətində nəhəng layihələr həyata keçirilməkdədir. Füzuli Beynəlxalq Hava Limanında radiotexniki vasitələrin hazırlığı yoxlanılması istiqamətində görülən işlər də hər bir Azərbaycan vətəndaşı tərəfindən sevinclə qarşılandı. "Azərbaycan Hava Yolları" (AZAL) aviaşirkətinin yaydığı məlumata görə, 20-25 avqust tarixlərində Füzuli Beynəlxalq hava limanında müntəzəm reyslərin yerinə yetirilməsi məqsədilə radiotexniki vasitələrin hazırlığının yoxlanılması üçün xüsusi hava gəmisilə uçuşlar həyata keçirilir. Xüsusi hərbi təyyarənin sınaq uçuşlarını uğurla həyata keçirərək, Füzuli Hava Limanının eniş-uçuş zolağına enməsi səhnəsi isə qürurvericidir. Özü də sınaq uçuşlarının məhz bu ərəfədə, Füzulinin işğal olunduğu tarixdə həyata keçirilməsinin də rəmzi mənası var, bu faktın özü erməni işğalına, vandalizminə növbəti mükəmməl cavabdır! Keçən ilin bu vaxtı çoxumuzun ağlına gəlməzdi. Amma bu, bir reallıqdır, yayılmış kadrları təkrar-təkrar seyr etməyə dəyər: Füzulidə yeni tikilib istifadəyə verilmiş hava limanının pistinə ilk təyyarə endi... Gözəl mənzərədir. Özü də Qarabağda 3 hava limanı - Füzuli, Zəngilan və Laçında - tikilib istifadəyə veriləcək ki, bu faktın özü dövlətimizin qüdrətini nümayiş etdirir. Bu hava limanları Qarabağın qarantı, işğaldan azad edilmiş və yaxın gələcəkdə ediləcək (!) ərazilərin təhlükəsizliyinin ən ciddi təminatçısıdır.

Bir sözlə, bu hərbi nailiyyət Azərbaycan dövlətinin, Azərbaycan Prezidentinin gücünü, qüdrətini, Azərbaycan xalqının əzmini, iradəsini bütün dünyaya nümayiş etdirdi. Yaşasın Azərbaycan Ordusu! Yaşasın Azərbaycan xalqı! Qarabağ Azərbaycandır!

**RƏFİQƏ KAMALQIZI**

# Azərbaycan xalqı Prezident İlham Əliyevi çox sevir - PAYTAXT SAKİNLƏRİ - SORĞU

***Bu gün Azərbaycana Ümummilli Lider Heydər Əliyev yolunun layiqli davamçısı Prezident İlham Əliyev başçılıq edir. Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır və qalib gəlir. Azərbaycan xalqının iradəsini ifadə edən dövlət başçısı İlham Əliyev müstəqil Azərbaycanın Prezidenti, həm də dünya azərbaycanlılarının lideridir. Pezident İlham Əliyev bütün dünya tərəfindən qəbul olunan görkəmli və müasir dövlət xadimidir. Bu gün isə Möhtərəm Prezident İlham Əliyevin hakimiyyətə gəlməsinin il dönümüdür. İlham Əliyev 2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçilib. Prezident seçkilərində seçicilərin 76 faizindən çoxu İlham Əliyevin lehinə səs verib. Bəs görəsən, Azərbaycan xalqı Prezident İlham Əliyevin 2003-cü ildən bu yana gördüyü işlərə münasibtləri necədir? SİA olaraq şəhər sakinləri arasında sorğu keçirdik:***



**Şəhər sakini Zaur Əliyev:** ”Prezidentimiz verdiyi sözü tutdu və torpaqlarımızı düşmən işğalından azad etdi. Bu da bizim üçün fəaliyyətlərinin ən önəmlisi idi. Çünki bizim əslimiz də ordandır. Bu da əvvəllər bizi çox narahat edən məsələ idi. Keçən il 44 günlük müharibə dövrü göstərdi ki, xalqımız istədiyi vaxt səfərbər olub bir yumruq ola bilər. Biz xaricə səfər edən zamanlarda bizə üstdən aşağı baxırdılar. Bizim belə mütəşəkkilliyimiz yox idi. Bu hadisələr hamısı sübut etdi ki, biz çox-çox irəli gedə bilərik. Mən buna görə də Prezidentimizə öz təşəkkürümü bildirirəm”.



**Şəhər sakini Zərifə Rzayeva**: ”Bu barədə onu deyə bilərəm ki, bizim Prezidentimiz İlham Əliyev ən çox da gənclərimizə dəstək oldu. Səhv etmirəmsə, 2007-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üçün Dövlət Proqramı təsdiq etdi. Buna görə də, gənclərimiz daha da yaxşı təhsil alır. Bu hal da məni çox sevindirir”.

**Türkiyə vətəndaşı, həkim Cafer Nuti:** ”Mən Türkiyədən gəlmişəm və təbii ki, bir türk olaraq öz fikrimi bildirirəm. İlham Əliyevi bəyənirəm və təqdir edirəm. Onun



bu ölkədə fəaliyyətləri çoxdur. Ən əsası da keçən il baş vermiş savaşdan azərbaycanlılar qalib olaraq döndülər. Bu da biz türkləri çox sevindirir. Çünki biz, Heydər Əliyevin də dediyi kimi, ”bir millət iki dövlətik””.



**Şəhər sakini Məlahət Əlizadə:** ”Mən fəxr edirəm ki, bizim belə Prezidentimiz var. Əgər o olmasaydı, ermənilər bizim ölkəni darmadağın edəcəkdilər. Mən bir azərbaycanlı olaraq Prezidentimizə işlərində müvəffəqiyyətlər arzu edirəm. Ona Allahdan can sağlığı diləyirəm”.



**Şəhər sakini Zakir Məmmədov:** ”Deyə bilərəm ki, Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda fəal iştirak edən İlham Əliyev, həm də görkəmli partiya xadimidir. O, ölkənin aparıcı siyasi partiyası olan Yeni Azərbaycan Partiyasının lideridir. İlham Əliyev Milli Məclisin deputatı olduğu dövrdə də geniş və çoxşaxəli fəaliyyət göstərmişdir. O, daim xalqın içərisində olmuş, problemləri öyrənmiş, əhalinin sosial müdafiəyə ehtiyacı olan təbəqələrinə müntəzəm qayğı göstərmişdir. Məhz buna görə də O, həmişə ölkənin sevilən lideri olaraq qalacaq”.



**Şəhər sakini Səlimə Ağayeva:** ”Biz hörmətli Prezident İlham Əliyevi və onun fəaliyyətlərini həmişə dəstəkləmişik. 44 günlük müharibədən sonra da ona qarşı olan sevgimiz daha da artdı. Çünki o bizlərə verdiyi sözü tutdu və şəhidlərimizin qisası alındı. Buna görə Prezidentimizə çox təşəkkür edirəm. Ona işlərində uğurlar arzu edirəm”.



**Şəhər sakini Aybəniz Quliyeva:** ”Tarixə yazılan elə günlər var ki, bu günlər xalqın gələcəyini müəyyən edən önəmli başlanğıcların əsası qoyulur və məhz bu tarixi günlərdən biri də cənab İlham Əliyevin ilk dəfə Prezident seçildiyi gün, 15 oktyabr tarixidir. 2003-cü il oktyabrın 15-də Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyev xalqımızın etimadını qazanaraq Azərbaycan Prezidenti seçildi və bununla da ölkəmizin inkişafında yeni bir keyfiyyət mərhələsi başlandı.

Cənab Prezidentin seçildiyi gündən bu vaxta qədər ölkəmizin bütün istiqamətlərdə qazandığı uğurlar göz önündədir. Məhz dövlət başçısının rəhbərliyi və uzaqgörənliyi, doğru, düzgün siyasəti, strategiyası sayəsində siyasi, iqtisadi nailiyyətlərimizi, regional və qlobal əhəmiyyətli layihələrimizi təkzib etmək olmaz. Azərbaycan artıq qüdrətli dövlətə çevrilib və əlbəttə ki, cənab Prezidentin bu istiqamətdə rolu və xidmətləri danılmazdır. Ələlxüsus, bir il bundan öncə Ermənistan tərəfinin təxribatlarına cavab olaraq başlayan, 44 gün davam edən müharibədə qazandığımız qələbə, zəfər, 30 il işğal altında saxlanılan torpaqlarımızın işğaldan azad edilməsində, məhz Ali Baş Komandanın qətiyyətinin, siyasi iradəsinin, bilik və bacarığının, liderlik keyfiyyətlərinin böyük, həlledici rol oynadığının bizimlə bərabər bütün dünya ictimaiyyəti də şahidi oldu. Azərbaycan xalqı, Azərbaycan cəmiyyəti hər zaman olduğu kimi, yenə də öz liderinin, öz Prezidentini dəstəkləyir, onunla yanaşıdır, Vətən müharibəsində olduğu kimi həmrəydir”.



**Şəhər sakini Sevinc İbrahimova:** ”Bildirmək istəyirəm ki, Azərbaycanda Ulu Öndər Heydər Əliyevin davamçısı olan İlham Əliyev, öz atasının arzusunu yerinə yetirdi. Biz o qədər igidlər itirirdik ki, mənim torpaqlarımızın alınmasına ümidim tükənmişdi. O an yaşadığımız hisslər üçün Prezidentimizə dərin minnətdarlığımı bildirirəm. Azərbaycan xalqı onu çox sevir və sevməyə də davam edəcək”.



**Şəhər sakini Vüqar Əsədov:** ”Cənab Prezident yeddidən-yetmişə hamının sevimlisidir. İlk dəfə seçildikdən bu yana könülləri fəth etməyə başlayıb. Ümummilli liderin yolunu davam etdirib. Ən əsası torpaqlarımızı işğaldan azad etdi. Bununla da hamı tam əmin oldu ki, həqiqətən də, cənab Prezident Azərbaycan üçün layiqli Prezidentdir”.

***Rüqəyya Orucova***

# Milli Məclisdə “Müstəqillik Günü haqqında” qanun layihəsi qəbul olundu

***Dünən Milli Məclisin sədri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin növbəti plenar iclası keçirilib. Spiker bu iclasın ölkəmizin və xalqımızın həyatında dönüş yaradan tarixi bir gün ərəfəsində keçirildiyini söyləyib. Bildirib ki, oktyabrın 18-də biz Azərbaycanın müstəqilliyinin bərpasının 30 illiyini qeyd edəcəyik.***



Sahibə Qafarova deyib ki, ötən əsrin əvvəllərində qurduğu müstəqil dövlətini cəmi 23 ay yaşada bilən Azərbaycan xalqına bu imkan bir də əsrin sonlarında nəsib olub. 1991-ci il oktyabrın 18-də Azərbaycan parlamenti tərəfindən ”Dövlət Müstəqilliyi haqqında” Konstitusiya Aktının qəbul edilməsi ilə Azərbaycan Respublikasının müstəqilliyi bərpa olunub. Amma müstəqilliyi əldə etmək az idi, onu qoruyub saxlamaq lazım idi. O vaxt ölkəmizin qarşısında duran ən mühüm vəzifələrdən biri yeni yaranan dövlət quruluşunun siyasi, sosial və iqtisadi təməlini qurmaqdan, dəyişən şəraitə uyğun idarəçilik mexanizmləri hazırlamaqdan ibarət idi.

Qeyd olunub ki, yeni dövrün tələbləri ilə ayaqlaşa bilən siyasi rəhbərliyin olmadığı şəraitdə hər hansı düşünülmüş dövlət quruculuğundan söhbət gedə bilməzdi. Nəticədə ölkəmiz son dərəcə mürəkkəb problemlərlə qarşılaşaraq çox çətin vəziyyətə düşmüşdü. Hərc-mərclik, hakimiyyət davası ölkəni idarəedilməz vəziyyətə gətirmiş, cəmiyyətdə və dövlətdə dağılma meylləri qarşısıalınmaz xarakter almış, qanunsuz silahlı dəstələrin özbaşınalığı real vətəndaş müharibəsi təhlükəsi törətmişdi. Fürsətdən istifadə edən Ermənistan silahlı qüvvələri torpaqlarımızın işğalını gündən-günə genişləndirirdilər.

Sahibə Qafarova, həmçinin bildirib ki, bütün bu proseslərin məntiqi nəticəsi kimi dövlətin varlığı, xalqın gələcək müqəddəratı sual altında qalmışdı. Müasir Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin aqibətini yaşamaq təhlükəsi qarşısında idi.

Sonra iclasda Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının otuzuncu ildönümü münasibəti ilə deputatları ürəkdən təbrik edən Sahibə Qafarova Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlanmasını, onlara Azərbaycan dövlətinin daha da möhkəmlənməsi və inkişaf etməsi, xalqımızın rifahının yüksəlməsi naminə dəyərli fəaliyyətlərində yeni uğurlar arzulamağı təklif edib. Sonra plenar iclasda 10 məsələdən ibarət gündəlik təsdiqlənib.

Cari məsələlərin müzakirəsində deputatlar Zahid Oruc, Sahib Alıyev, Fazil Mustafa, Nizami Səfərov, İqbal Məmmədov, Kamilə Əliyeva, Etibar Əliyev, Cavid Osmanov, Soltan Məmmədov, Ziyafət Əsgərov, Bəhruz Məhərrəmov bir sıra ciddi məsələlərə toxunublar. Çıxışlarda 18 il əvvəl oktyabrın 15-də Azərbaycan Prezidenti seçilən İlham Əliyevin dövlətçiliyin möhkəmlənməsi istiqamətində nəhəng fəaliyyəti qeyd olunub, bu illər ərzində Azərbaycanı dünyanın ən qüdrətli ölkələrindən birinə çevirməsi, Vətən torpaqlarını 30 illik işğaldan azad edərək ərazi bütövlüyümüzü təmin etməsi xüsusi vurğulanıb. Deputatlar bir sıra beynəlxalq əhəmiyyətli və daxili məsələlərlə bağlı düşüncələrini də parlamentin diqqətinə çatdırıblar.

Milli Məclis gündəlikdəki məsələlərin müzakirəsinə ”Müstəqillik Günü haqqında” qanun layihəsinə üçüncü oxunuşda baxılması ilə başlayıb. Qanun layihəsi barədə Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynlinin məlumatı dinlənilib. Çıxışını yekunlaşdıran Milli Məclis sədrinin birinci müavini vurğulayıb ki, birinci və ikinci oxunuşlar zamanı parlamentdə aparılan müzakirələrdə, həmçinin mediada çıxış edən deputatlar Prezidentin təqdim etdiyi qanun layihəsinin mahiyyətini və məzmununu cəmiyyətə çox dəqiq çatdırıblar. Qeyd edib ki, bu qanunun qəbulu müstəqilliyimizin bərpasının 30 illiyi ərəfəsində cəmiyyətimizə, xalqımıza verdiyimiz ən böyük töhfələrdən biridir. Bu dəfə biz bu bayramı ərazi bütövlüyümüzün təmin olunduğu şəraitdə, qalib xalq formasında qeyd edəcəyik.

Sonra iclasda ”Müstəqillik Günü haqqında” qanun layihəsi üçüncü oxunuşda səsə qoyulub və qəbul edilib.

Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, gündəlikdəki növbəti 4 məsələ ikinci oxunuşda parlamentə təqdim olunmuş qanun layihələridir. İclasda həmin qanun layihələri bu oxunuşun prosedur qaydalarına uyğun olaraq müzakirə edilib. Sonra Milli Məclis birinci oxunuşda müzakirəyə çıxarılmış 4 qanun layihəsinə baxıb.

Parlamentdə ”Dövlət rüsumu haqqında” Qanunda dəyişiklik edilməsi barədə birinci oxunuşda qanun layihəsini ətraflı şərh edən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili vurğulayıb ki, 1996-cı ildə qəbul olunmuş ”Torpaq islahatı haqqında” Qanuna görə Azərbaycanda 2032 kolxoz və sovxoz ləğv olunmuş, bunun əvəzində minlərlə ailəyə torpaq payı verilmişdi. Bu, o zaman ulu öndər Heydər Əliyev tərəfindən MDB-də keçirilmiş ilk torpaq islahatı olmuşdu. Azərbaycanda sahibkarlığın inkişafına, qida təhlükəsizliyinin və əhalinin məşğulluğunun təmin olunmasına çox böyük təkan vermişdi. Aparılan təhlillər ötən 25 il ərzində islahatların icrası zamanı bir sıra nöqsanlara yol verildiyini aşkara çıxarıb.

Layihəyə görə, ”Dövlət rüsumu haqqında” Qanunda edilən dəyişiklik torpaq islahatı dövründə pay torpağı almış, lakin müvafiq hüquqi sənədlərlə təmin edilməmiş torpaq sahiblərinin torpaq üzərində hüquqlarının təsdiqi zamanı dövlət rüsumundan azad edilməsini nəzərdə tutur. Bu həm mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması barədə daşınmaz əmlakın dövlət reyestrindən çıxarışa (30 manat miqdarında dövlət rüsumu), həm də texniki sənədlərin verilməsinə (50 manat miqdarında dövlət rüsumu) şamil ediləcək, yəni vətəndaş 80 manatı ödəməkdən azad olunacaq və həmin məbləğ dövlət büdcəsindən ödəniləcək.

Müzakirədən sonra komitə sədri Tahir Mirkişili deputatlar Musa Quliyev və Razi Nurullayevi maraqlandıran suallara cavab verib. Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda dəstəklənib.

Gündəlikdəki növbəti iki məsələni Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev təqdim edib. Birbiri ilə bağlı olan ”Təhsil haqqında” və ”Peşə təhsili haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrini birinci oxunuşda şərh edən komitə sədri qeyd edib ki, hər iki sənəddə dəqiqləşdirmə ilə yanaşı mütərəqqi olan bəzi məsələlər də öz həllini tapır. Belə ki, Azərbaycan Respublikasının təhsil üzrə milli kvalifikasiyalar çərçivəsinə görə, yüksək texniki peşə təhsili və orta ixtisas təhsili kvalifikasiyalar çərçivəsinin beşinci səviyyəsinə uyğundur. Azərbaycanın milli təhsil standartına görə isə milli kvalifikasiyalar çərçivəsinin beşinci səviyyəsi ali təhsilin qısa dövrü kimi müəyyən edilib. Beləliklə, istər texniki peşə təhsili, istərsə də orta ixtisas təhsili subbakalavr kimi qanunda təsbit edilib və bunların hüquqları bərabərləşdirilib.

Parlamentə daxil olmuş layihələrə görə, ”Təhsil haqqında” Qanuna təklif olunan dəyişikliklər yüksək texniki peşə təhsili səviyyəsi üzrə tədrisin təşkilində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada kredit sisteminin tətbiqi və bu təhsil səviyyəsi üzrə subbakalavrların topladıqları kreditlərin ali təhsil müəssisələrində nəzərə alınması məqsədi daşıyır. ”Peşə təhsili haqqında” Qanunda edilən dəyişiklik isə peşə təhsili müəssisələrində yüksək texniki peşə təhsili səviyyəsini müvəffəqiyyətlə başa vuran məzunların (subbakalavrların) topladıqları kreditlərin bakalavriat səviyyəsinin uyğun ixtisaslarında ali təhsil müəssisələri tərəfindən nəzərə alınmasını, yüksək texniki peşə səviyyəsi üzrə peşə təhsili haqqında dövlət sənədinin ali təhsil müəssisəsinə daxil olmaq hüququ yaratmasını və növbəti təhsil pilləsində ali təhsil almaq üçün əsas sayılmasını nəzərdə tutur.

Qanun layihələrinin müzakirəsində deputatlar Fazil Mustafa, Razi Nurullayev, Etibar Əliyev, Sahib Alıyev, Könül Nurullayeva, Aydın Mirzəzadə, Ceyhun Məmmədov, Elşad Mirbəşir oğlu, Emin Hacıyev rəy və təkliflərini bildiriblər. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyulub və hər ikisi birinci oxunuşda qəbul edilib. Bununla da Milli Məclisin növbəti iclası başa çatıb.

## Bahar Muradova: Prezident İlham Əliyevlə daha aydın sabahlara doğru



“15 oktyabr 2003-cü il prezident seçkilərində xalqımız Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyevin timsalında təkcə 5 il müddətində ölkəni idarə edəcək şəxsi, dövlət başçısını deyil, həm də respublikamızın strateji hədəflərini, bu məqsədə çatmaq üçün ideoloji xətti, ictimai-siyasi qüvvələrin konsolidasiyasına nail olmağın və Heydər Əliyev yolunu seçməklə Azərbaycan dövlətçiliyi tarixinə yeni parlaq səhifələrin yazılmasına böyük təminat yaratdı”. SİA-nın məlumatına görə, bu fikirləri YAP İdarə Heyətinin üzvü, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib.

B.Muradova qeyd edib ki, Azərbaycan xalqı İlham Əliyevi Prezident seçməklə öncə Heydər Əliyevin siyasi kursuna səs verdi. Xalqımız sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi. Eyni zamanda, ölkədə bu siyasətə alternativin olmadığını göstərdi. Bu gün böyük qürur hissi bəhs etdiyimiz Zəfərimiz Heydər Əliyev siyasətinin təntənəsi, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətinin nəticəsidir. Prezident İlham Əliyevlə daha aydın sabahlara doğru

## “Ermənistanın mühakimə olunmasını və təzminat ödəməsini istəyirik”



“Ermənistanın mühakimə olunmasını və təzminat ödəməsini istəyirik”. Bunu mədəniyyət naziri Anar Kərimov Anadolu Agentliyinə müsahibəsində deyib. Nazir Ermənistanın Azərbaycan torpaqlarında törətdiyi dağıntıları beynəlxalq məhkəmələrə çatdırmaq üçün işlər getdiyini bildirib: ”Müstəqil şirkətlərlə işləyirik. Həmin şirkətlər işğaldan azad etdiyimiz bölgələrdə Ermənistanın törətdiyi dağıntıların qiymətləndirilməsi üçün çalışır. Bütün məlumatlar toplandıqdan sonra beynəlxalq məhkəmələrə təqdim ediləcək. Biz Ermənistanın dövlət olaraq bu məsələdə mühakimə olunmasını və təzminat ödəməsini istəyirik. Azərbaycan dövlətinə, xalqına, tarixinə, mədəniyyətinə və təbiətinə qarşı törətdiyi cinayətlərə görə Ermənistan məsuliyyət daşımalıdır”.

# Xudafərin körpüsünün üzərində 27 il sonra Azərbaycan Bayrağı ucaldıldı

***44 günlük Vətən müharibəsi Zəfər tariximizi yazaraq, qısa zaman kəsiyində bizləri böyük tarixi qələbəyə apardı. Bu qələbəni qazanmağımız 44 gün ərizində olsa da, bu tarixə qədər Azərbaycan böyük yol keçmişdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan bu qələbə sevincini bizlərə yaşatdı. Azərbaycanda aparılan ordu quruculuğu işləri, dövlətimizin iqtisadi gücünün artması, dünya birliyində nüfuzunun yüksəlməsi, uğurlu diplomatik siyasət xalqımızı qələbəyə doğru aparırdı.***



## *Oktyabrın 18-i böyük zəfərlərə imza atan müzəffər ordumuz tarixi abidəni öz sahibinə qovuşdurdu*

44 günlük Vətən müharibəmizdə hər səhərimiz qələbə sorağı ilə açılırdı. Ali Baş Komandanın qətiyyətli mövqeyi ordumuzda, əsgərlərimizdə böyük ruh yüksəkliyi yaradırdı. İşğaldan azad olunan ərazilərimiz igid oğulların qanı-canı bahasına geri alınırdı. Hər qarış torpaq Şəhidlərimizin qanı ilə suvarılırdı. Böyük qəhrəmanlıq dastanına çevrilən uğurlu əməliyyatlar dünya dövlətləri tərəfindən belə, izlənilirdi. 30 ilə yaxın işğalda olan ərazilərimizdə düşmən tapdağından azad olunaraq, qürurumuz olan Azərbaycan bayrağı dalğalandırılırdı.

### ”AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİ QƏDİM XUDAFƏRİN KÖRPÜSÜNÜN ÜZƏRİNDƏ AZƏRBAYCAN BAYRAĞINI QALDIRDILAR”

Vahid Azərbaycan rəmzi kimi qəbul edilən Xudafərin körpüsü üzərindən də Azərbaycan bayrağı dalğalandırıldı. ”Azərbaycan Silahlı Qüvvələri qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdılar. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!” Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi ”Twitter” səhifəsində yazmışdır.

Cəbrayıl rayonunda yerləşən bu körpü haqqında ilk məlumat VIII-IX əsrlərə aiddir. Xudafərin körpüsü Cənubi Azərbaycanla Şimali Azərbaycanın orta əsr şəhərlərini birləşdirən, karvan yolunun üstündə tikilib. O, həm də mühüm hərbi-strateji əhəmiyyət daşıyır. Araz çayının ən dar, qayalıqla əhatələnən yerində inşa edilmiş ilk körpü VIII əsrin sonu - IX əsrin əvvəllərindən başlayaraq, XIX əsrə kimi fəaliyyət göstərmişdir. Kərpic körpü isə XII əsrdə tikilmişdir. Körpünü inşa etdirən şəxsin adı barədə tarixi mənbələrdə dəqiq yazılı məlumat yoxdur. Araşdırmaçıların çoxunun fikrincə, hər iki körpünün dayaqları çayın ortasında olan təbii sal daşlar üzərində qurulduğundan onlara ”Xudafərin” adı verilib. Araz çayı üzərində salınan iki Xudafərin körpüsündən birincisi ”Baş Xudafərin körpüsü” adlanır. Onun uzunluğu 130, eni 6, hündürlüyü isə 12 metrdir. İkinci körpü isə 15 aşırımlı olmaqla uzunluğu 200, eni 4,5 metr, hündürlüyü 10 metrdir.1993-cü ildə mənfur ermənilərin ərazimizə soxulması nəticəsində körpüyə ciddi zərər dəyişmişdir, hazırda körpünün müəyyən hissəsi durur. Oktyabrın 18-i tariximizə daha bir şanlı gün kimi yazıldı. Cəbrayıl rayonunda yerləşən tarixi Xudafərin körpüsünün üzərində 27 il sonra üçrəngli Azərbaycan bayrağı ucaldıldı. Vətən Müharibəsində böyük zəfərlərə imza atan müzəffər ordumuz tarixi abidəni öz sahibinə qovuşdurdu. Bu müjdəli xəbəri Azərbaycan xalqına Prezident, Ali Baş Komandan İlham Əliyev çatdırdı.

***Z. BAYRAMOVA***

## Misir portalı Prezident İlham Əliyevin “La Repubblica” qəzetinə müsahibəsinin əsas məqamlarını yayıb




Misirin ”Əl Diplomasi” informasiya portalı Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyanın ”La Repubblica” qəzetinə müsahibəsinin əsas məqamlarını dərc edib. AZƏRTAC xəbər verir ki, məqalədə dövlətimizin başçısının Azərbaycanın xarici siyasətinin çox açıq, şəffaf, sabit və müstəqil olduğu barədə fikirləri yer alıb. Yazıda qeyd olunub ki, Prezident İlham Əliyev heç bir digər ölkənin Azərbaycanın qərarlarına təsir edə bilməyəcəyini və ya buna çalışmalı olmadığını vurğulayıb. O, qərarların Bakıda, Azərbaycanın milli maraqları əsasında şəxsən özü tərəfindən verildiyini diqqətə çatdırıb.

Məqalədə qeyd olunub ki, Prezident İlham Əliyev Azərbaycanın öz sərhədlərinə hörmətlə yanaşılmasını istədiyini vurğulayıb.

Sonda diqqətə çatdırılıb ki, Azərbaycanın xarici siyasət prioritetləri haqqında danışan Prezident İlham Əliyev qonşu ölkələrlə münasibətlərin prioritet olduğunu söyləyib. O əlavə edib ki, 8 il ərzində əvvəlki İran hökuməti ilə münasibətlər ən yüksək mümkün səviyyəyə çatıb. İki qonşu ölkə arasında enerji, nəqliyyat, mədəni inkişaf, təhlükəsizlik sahələrində bir çox sazişlər imzalanıb və icra edilib. Münasibətlərimiz, əslində, dostluq və yaxşı qonşuluq rəmzinə çevrilib. İranın yeni hökuməti, yeni Prezidenti seçiləndə də onun inauqurasiyasına parlament sədrinin və Baş nazirin müavininin rəhbərliyi ilə böyük nümayəndə heyəti göndərilib. Onlar Azərbaycanın dövlət başçısının dostluq mesajını birbaşa İran Prezidentinə çatdırıblar.

# Əhməd İsmayılov: ”Medianın iqtisadi müstəqilliyinin gücləndirilməsi dövlətin diqqət mərkəzindədir”

***Azərbaycan mediasının iqtisadi dayanıqlığının möhkəmləndirilməsi zaman-zaman ölkə mediasının gündəmə gətirdiyi məsələlər sırasındadır. Mətbuat qurumlarının rəhbərləri, media ekspertləri beynəlxalq təcrübəyə istinad edərək medianın biznes subyekti kimi möhkəmlənməsinə dair fikirlər səsləndirməkdədirlər.***



SİA xəbər verir ki, bu yöndə atılacaq addımlarla bağlı trend-in suallarını Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov cavablandırıb.Ə.İsmayılov bildirib ki, Medianın İnkişafı Agentliyi ölkə mediasının biznes modelinə keçidinin sürətləndirilməsi məqsədilə media subyektləri, jurnalistlər və ekspertlərlə çoxsaylı görüşlər keçirərək müxtəlif təkliflər alıb. Bütün rəy və təkliflər təhlil edilərək sistemləşdirildikdən sonra Agentlik hazırladığı inkişaf konsepsiyasının müddəalarını aidiyyəti dövlət orqanları ilə müzakirə etməkdədir:”Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ”Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında” Fərmanı ilə yaradılmış Medianın İnkişafı Agentliyinin nizamnaməsində kifayət qədər geniş spektri əhatə edən fəaliyyət istiqamətləri öz əksini tapıb. Agentlik, ilk növbədə, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsini, maddi-texniki bazasının möhkəmləndirilməsini, infrastrukturun modernləşdirilməsini, müvafiq sahədə yeni iqtisadi modelin yaradılmasını hədəfləyir və bu istiqamətdə atılacaq addımlara dəstək göstərir. Maddi dəstəyə ehtiyacı olan media subyektlərinə müsabiqə əsasında maliyyə yardımının göstərilməsi təmin edilib, jurnalistlərin və media subyektlərinin layihələrdə iştirakını asanlaşdırmaq üçün ”Elektron informasiya bankı” yaradılıb. Media və biznes strukturları arasında qarşılıqlı etimada əsaslanan münasibətlərin inkişaf etdirilməsi istiqamətində tədbirlər görülməyə başlanılıb və bu tədbirlər davamlı xarakter daşıyır. Medianın İnkişafı Agentliyinin media və biznes strukturları arasında ələqələndirici platforma rolunu oynaması media subyektləri tərəfindən dəstəklənir”.İcraçı direktorun sözlərinə görə, ölkə mətbuatının qarşılaşdığı sosial-iqtisadi çətinliklərin aradan qaldırılması ilə bağlı Agentliyə daxil olmuş rəy və təkliflər beynəlxalq təcrübə fonunda təhlil olunub, onların hüquqi və iqtisadi aspektləri dəyərləndirilib, görüləcək sistemli fəaliyyətin detalları dəqiqləşdirilib:”Media subyektlərinin biznes münasibətlərində aktivliyini təmin etmək məqsədilə onlara vergi güzəştlərinin və tətillərinin tətbiq olunması, digər biznes strukturlarının mediada reklam verməyə təşviq edilməsi istiqamətində araşdırmalar aparılıb. Qeyd olunan çoxmərhələli prosesin yekunu olaraq yaxın zamanlarda ümumiləşdirilmiş layihələrlə çıxış etməyi planlaşdırırıq. Təbii ki, media subyektlərinin əhatə dairəsi geniş olduğundan spesifik xarakterli problemlərlə də qarşılaşmağımız qaçılmazdır və biz bütün bunların hamısını diqqətdə saxlayır, davamlı müzakirələr aparırıq”.Ə.İsmayılov vurğulayıb ki, medianın inkişafı yönündə dövlətin verdiyi qərarların məzmununa nəzər salsaq görərik ki, Azərbaycan mediasının iqtisadi dayanıqlığının gücləndirilməsi, müstəqil, güclü, fəaliyyətini günümüzün tələbləri səviyyəsində qurmağı bacaran, habelə dövlətçilik ənənələrinə bağlı və xalqımızın milli maraqlarını rəhbər tutan medianın inkişafı prioritet vəzifələrdən biri kimi daim diqqət mərkəzində olub.Medianın İnkişafı Agentliyi də öz işini media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, müvafiq sahədə yeni iqtisadi modelin formalaşdırılması, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması üzərində qurub: ”Sevindirici haldır ki, həyata keçirdiyimiz layihələrin müasir dövrün tələbləri ilə uzlaşdığını, mediaya yeni yanaşmanın formalaşmasına zəmin yaratdığını media ictimaiyyəti də bildirir və Agentliyin təşəbbüslərinə pozitiv reaksiya verirlər. Medianın inkişafına nail olmaq məqsədilə irəli sürdüyümüz və icra etdiyimiz bütün layihələr beynəlxalq mediada gedən müasir prosesləri özündə ehtiva edir və Azərbaycan media subyektlərinin peşəkarlığının artırılması ilə yanaşı, onun simasının müasirləşməsini, beynəlxalq rəqabət imkanlarının yüksəldilməsini hədəfləyib. Düşünürük ki, həm dövlətin dəstəyi, həm biznes strukturları ilə ələqələrin intensivləşməsi, həm də media menecmentin təkmilləşməsi nəticəsində mediamızın qarşılaşdığı sosial-iqtisadi çətinliklərin aradan qaldırılması mümkündür”.

***Xalqımız bu il öz tarixi bir gününü - 18 Oktyabr tarixini böyük qələbə ilə qeyd edir. 18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyinin bərpa olunduğu tarixi gündür. Düz 30 il bundan əvvəl elan olunan 18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günü xalqımızın tarixinə həkk olundu. Azərbaycan xalqı ötən əsrin əvvəlində müstəqil respublika qurmuş, 1991-ci ildə isə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi öz müstəqilliyini bərpa etmişdir. Beləliklə, 1918-ci ildə İstiqlal Bəyannaməsinin qəbul olunduğu 28 may Azərbaycan Respublikasında müstəqillik günü, 1991-ci ildə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul olunduğu 18 oktyabr isə müstəqilliyin bərpası günü kimi qeyd olunacaq.Bu gün müstəqillik tariximizin ən şərəfli, qürurlu zamanı yaşayırıq. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlarımızı azad edərək tarix yazdıq.***

# Müstəqillikdən tərəqqi və inkişafa gedən tarixi yol!

*18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyinin bərpa olunduğu tarixi gündür*




30 illik müstəqillik tariximizdə müasir dövrün qlobal çağırışlarına dəstək verən müstəqil Azərbaycanın yürütdüyü siyasət, ölkəmizin etibarlı və strateji tərəfdaş kimi, nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Müstəqil dövlətimizdə kənd təsərrüfatında, kosmik sənayedə, hərbi sənayedə, səhiyyədə, təhsildə və s. əldə olunan uğurlar, eləcə də, beynəlxalq səviyyədə qurduğu münasibətlər, davamlı inkişaf, məhz bu müstəqillik tarixində əldə olunan nailiyyətlərdir. 30 il əvvəl Azərbaycan Respublikası Ali Soveti Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Oktyabrın 8-də işə başlayan növbədənkənar sessiya məsələni 4 gün müzakirə etsə də, qərar verməyi bir həftə sonraya saxladı. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edildi. Əsrlər boyu müstəqillik arzusu ilə yaşamış Azərbaycan xalqı ayrı-ayrı dövrlərdə müxtəlif imperiyaların və böyük dövlətlərin tərkibində olmasına baxmayaraq, dilini, milli-mənəvi dəyərlərini və mədəniyyətini göz bəbəyi kimi qoruyub-saxlaya bilmişdi. XX əsrin 80-ci illərinin sonunda başlanan tarixi-siyasi proseslərdə Azərbaycan xalqının istiqlala bağlılığı, müstəqil dövlətçiliyə malik olmaq arzusu, özünü açıq-aydın büruzə verdi. Azərbaycanın dövlət müstəqilliyi yolunda mücadiləsi, faktiki olaraq, 1988-ci ilin xalq hərəkatı ilə başlansa da, bu istiqamətdə həlledici proseslər 1990-1991-ci illərdə cərəyan etdi. Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, əslində, Azərbaycan özünün əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi.

### MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASI MÖHKƏM ƏSASLAR ÜZƏRİNDƏ YENİ İNKİŞAF XƏTTİNİ TUTDU

Müstəqilliyinin ilk illərində ölkəmiz xeyli çətinliklərlə üzləşdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin Azərbaycana ikinci dəfə hakimiyyətə qayıdışı ölkəmizin tarixində həlledici məqam oldu. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinə Sədr seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrildi. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində, Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi-siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Böyük zəka və iradə sahibi olan Ümummilli Lider Heydər Əliyev qısa zaman kəsiyində, müharibə bölgəsində atəşkəsə, ölkədə möhkəm və dönməz sabitlik yaradılmasına, qeyri-qanuni silahlı dəstələrin ləğvinə, ümummilli böhrana son qoyaraq, demokratik islahatlar yoluna keçirilməsinə nail oldu. Azərbaycan xalqının Ulu Öndərin azərbaycançılıq ideyası ətrafında daha sıx birləşməsi ilə müstəqil Azərbaycan dövlətçiliyi daha da möhkəmləndi.

1995-ci il 12 noyabrda müstəqil Azərbaycanın Konstitusiyası referendum yolu ilə qəbul edildi, bundan sonra sistemli şəkildə aparılan demokratik islahatlar sayəsində, ölkədə bazar iqtisadiyyatı münasibətləri bərqərar edildi.Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu 1994-cü ilin 20 sentyabrında nəhəng neft müqaviləsi - "Əsrin Müqaviləsi" imzalandı. Bununla da, Azərbaycan, ilk dəfə olaraq, öz sərvətlərinin sahibi kimi çıxış etdi. Dünyanın ən aparıcı dövlətlərinin ən qabaqcıl şirkətlərinin bu kontraktda iştirakı isə, ölkəmizin regionda əhəmiyyətini və nüfuzunu artırdı. Azərbaycan iri regional layihələrdə, Avropanın və bütövlükdə, dünya enerji təhlükəsizliyi sisteminə qoşuldu. Bu, Ümummilli Lider Heydər Əliyevin beynəlxalq nüfuzuna olan hörmətdən, Azərbaycanda sabit vəziyyətin və əlverişli investisiya mühitinin yaranacağına olan inamdan yaranmışdı.Bu gün Azərbaycan yeni bir inkişaf mərhələsindədir. Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir və Onun əbədiliyi təmin edilir.

Bu gün, tam cəsarətlə demək olar ki, ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın Azərbaycan modeli yaranıb. Bu model əsasında uğurla həyata keçirilən və yeni çalarlarla zənginləşdirilən sosial-iqtisadi siyasətin nəticələri Azərbaycanın həm də beynəlxalq imicinin və dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə gətirib çıxarıb. Prezident İlham Əliyevin uzaqgörən və praqmatik xarici siyasət strategiyasının qanunauyğun nəticəsi kimi, Azərbaycan beynəlxalq münasibətlər sisteminin nüfuz və güc dairəsində sürətlə irəliləməkdədir. Belə ki, həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Təkcə onu demək kifayətdir ki, ölkəmizin iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmır. Ölkə başçısı İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, Azərbaycan dünya miqyasında böyük rəğbətə malik olan bir ölkədir: "İkitərəfli əlaqələr inkişaf edir, biz dünyada daha çox dostlar qazanırıq. Üzv olduğumuz bütün təşkilatlarda bizim sözümüzün böyük çəkisi var".

Bütün bunlar, bir daha deməyə əsas verir ki, Azərbaycanın müstəqilliyi əbədi və dönməzdir. Ölkəmizdə uğurla inkişaf etdirilən neft strategiyası, neftlə bağlı əldə olunan nailiyyətlərimiz, bilavasitə Ulu Öndər Heydər Əliyev qətiyyətinin nəticəsidir və bu gün Onun kursunun layiqli davamçısı Cənab İlham Əliyev tərəfindən davam etdirilir. Azərbaycanda enerji sektorunda böyük nailiyyətlər əldə edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan bu gün o ölkələrdəndir ki, öz hesabına yaşayır.

### "ÖLKƏMİZİN XARİCİ SİYASƏTİ UĞURLU DAXİLİ SİYASƏTİMİZİN DAVAMIDIR"

Dövlət başçısının dünya səviyyəsində həyata keçirdiyi balanslaşdırılmış xarici siyasəti Azərbaycanı inkişaf etmiş demokratik ölkələr sırasına çıxarıb. Demokratik və müstəqil dövlət kimi kimi tanınan Azərbaycan çağdaş dünyada, qloballaşma və inteqrasiya proseslərində, bütün beynəlxalq görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda ölkə həqiqətlərini dünyaya çatdırır, Azərbaycanın mənafelərini uğurla müdafiə edir. Vurğulamaq yerinə düşər ki, Azərbaycan diplomatiyasının uğurları yalnız BMT ilə deyil, digər nüfuzlu təşkilatlarla da sıx əlaqə yaratmasına imkan verib. Bu sırada Azərbaycanın ATƏT, İslam Konfransı Təşkilatı, Avropa Şurası, GUAM, Avropa İttifaqı, NATO və digər tanınmış beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etməsi xüsusi qeyd olunmalıdır. Bu gün Azərbaycan öz milli maraqlarına xələl gətirmədən bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında bütün xoşniyyətli tərəfdaşlar üçün nadir əməkdaşlıq məkanına çevrilib. Azərbaycan Respublikasının xarici ölkələrdə səfirlikləri, beynəlxalq təşkilat yanında daimi nümayəndəlikləri, baş konsulluqları, təmsilçilik ofisləri və fəxri konsulluqları fəaliyyət göstərir. Respublikamızda isə dünya dövlətlərinin səfirlikləri, baş konsulluqları, fəxri konsulluqları və beynəlxalq təşkilatların nümayəndəliyi vardır. Dövlət başçısının vurğuladığı kimi, "Ölkəmizin xarici siyasəti uğurlu daxili siyasətimizin davamıdır". Müstəqilliyimizin möhkəmləndirilməsində, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, ölkəmizin beynəlxalq birliyin fəal üzvünə çevrilməsində diplomatlarımızın, diplomatik xidmət orqanlarımızın müstəsna xidmətləri var".

Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində, ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində davamlı işlər görülür. Müasir dövrün qlobal çağırışlarına dəstək verən Azərbaycan dünya dövlətləri və beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq imkanlarına malikdir. Müstəqil Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Bu gün, məhz uğurlu iqtisadi inkişaf strategiyasının nəticəsidir ki, Azərbaycan modeli dünyada tanınır və qəbul edilir. Bütün bu və ya digər amillər 30 illik müstəqillik dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlər - tarixi gerçəkliklərdir.

### "30 İL VƏTƏN HƏSRƏTİ İLƏ YAŞAMIŞ İNSANLAR TEZLİKLƏ ÖZ YURDLARINA, ÖZ TORPAĞINA QAYITMAQ İSTƏYİRLƏR"

Əzəli torpaqlarımızın düşmən işğalından azad olunması üçün 30 il yol gəldik. Artıq bu gün güclü Azərbaycan ordusu cəbhədə öz sözünü dedi. Artıq işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərinə başlanılıb. İllərdir yurd-yuva həsrəti ilə yaşayan insanlar öz yaşadıqları yurd yerlərinə dönəcəklər. "30 il Vətən həsrəti ilə yaşamış insanlar tezliklə öz yurdlarına, öz torpağına qayıtmaq istəyirlər", - deyə Azərbaycan Prezidenti bildirib. Bu gün artıq Azərbaycan Ermənistan üzərindəki qələbədən sonra işğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işlərinə başlayıb. İşğaldan azad olunmuş ərazilərdə dövlətimizin başçısının tapşırığı ilə bir neçə yol layihəsinin icrasına başlanılıb və uğurla davam etdirilir. Dini-mədəniyyət abidələrimiz təmir və bərpa olunur, infrastruktur qurulur. "30 il ərzində ermənilər o yerləri dağıdıblar və bu gün oranı bərpa etmək, əlbəttə ki, vaxt tələb edir", deyən Prezident bizim burada əsas rəqibimizin zaman olduğunu bildirib.

Bu gün müstəqil dövlətimizin gücü, nüfuzu, dinamik inkişafı sahəsində tezliklə işğaldan azad olunmuş torpaqlarımıza dönəcəyimizə əminlik yaradır.

***Nəzakət ƏLƏDDİNQIZI***

Təhlil

# Nataliya Portyakova: "Azad olunmuş ərazilər adamı qorxudur"



**"İzvestiya"nın müxbiri: "Azərbaycan təbii və süni gözəlliklər ilə doludur, amma təəssüf ki, bu, Rusiyada çox zəif təbliğ olunur"**

Rusiyanın "İzvestiya" qəzetinin xüsusi müxbiri Natalya Portyakova "Caliber" analitik mərkəzinə müsahibəsində azad olunmuş Qarabağa səfər təəssüratlarını danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.

**- Natalya, bildiyimizə görə, bir müddət əvvəl erməni işğalından azad edilmiş Azərbaycan ərazilərində olmusunuz. Bu səfərdə məqsədiniz nə idi?**

- Azərbaycana səfərim 2021-ci ilin fevralında baş tutdu. Səfər zamanı Ermənistanla son hərbi münaqişə zamanı ən çox əziyyət çəkən Ağdam şəhərini, eləcə də Tərtər şəhərini ziyarət etdik.

**- Gördüklərinizdən təəssüratlarınız necədir?**

- Ağdamın ilk təəssüratları, əlbəttə ki, kədərli idi: bir vaxtlar həyatla dolu olan nəhəng bir səliqəsiz ərazi tamamilə cansız və baxımsız qalmışdı. Yarı sökülmüş evlərin skeletlərindən bəziləri, paslı armaturlar və minalardan təmizlənməmiş ərazilərin ətrafındakı adamı qorxudan lentlər...

Təbii ki, ilk dəfə olduğum Bakı bu fonda mütləq təzad olaraq ortaya çıxdı. Zövqlə qeyd etdim ki, bu müasir təmiz şəhər, bütün "incəliyi" ilə çoxlu sayda köhnə evləri və məhəllələri əla vəziyyətdə saxlamışdır- və bənzərsiz bir ləzzət yaradır.

**- Necə düşünürsünüz, ermənilər niyə işğal altındakı torpaqları belə etdi, oradakı hər şeyi məhv etdi?**

- Təbii ki, ermənilərə cavab vermək mənim üçün çətindir. Və bunu etmək istəməzdim. Ancaq kənardan müşahidəçi nəzərində mənə elə gəlir ki, Ermənistandan dağlarla ayrılmış bir çox əraziləri ələ keçirən ermənilər ürəklərində başa düşürdülər ki, yeni hərbi münaqişə baş verərsə, onları saxlamaq olduqca çətin olacaq.

**- İki xalqın sülh və harmoniyada yaşamasına nə mane olur və qarşılıqlı anlaşmaya necə nail olmaq olar?**

- Azərbaycanlılar və ermənilər də daxil olmaqla, müharibə aparan millətlərin əksəriyyətinin onilliklər ərzində bir çox ailələrdə kök salmış və nəsildən-nəslə uşaqlara ötürülən bir-birlərinə qarşı mənfi münasibətləri sülh şəraitində yaşamalarına mane olur.

Ölkələr arasında az-çox dostluq mövcudluğu, mənim fikrimcə, yalnız hər iki ölkədə ənənəvi doqmalardan və "düşmən münasibətlərindən" azad yeni bir nəsil yetişəndə mümkün olacaq. Ancaq praktik olaraq, əlbəttə ki, bu, asan deyil, bunu İsrail və Fələstin və ya Serbiya və Kosovo nümunələri göstərir.

İrəvanla Bakı arasındakı düşmənçiliyi neytrallaşdıra biləcək ikinci nöqtə iqtisadi əlaqələr ola bilər.

Burada nümunə olaraq Çin-Yaponiya-Cənubi Koreya üçbucağında bir-birlərinə ərazi iddiaları və mürəkkəb tarixi münasibətləri olan, lakin iqtisadi əlaqələr ilə son dərəcə bir-birinə bağlı olan ölkələri göstərmək olar. Bunun sayəsində bu ölkələr arasında ziddiyyətli münasibətlər qalsa da, heç vaxt hərbi qarşıdurmanın astanasında aşağı düşməyəcək.

Bakı ilə İrəvan arasında daha yaxşı anlaşma yolunda minimum addım, məncə, ermənilərin Azərbaycana səfəri ola bilər. Şəxsən mən çoxdan ölkənizi ziyarət etmək arzusunda olan bir neçə erməni siyasini tanıyıram.

**- Yenidən ölkəmizə gəlmək istərdinizmi?**

- Əlbəttə. Yalnız bir arzu var- Bakı ilə məhdudlaşmadan Azərbaycanı daha yaxından tanımaq. Əminəm ki, ölkə təbii və süni gözəlliklər ilə doludur, amma təəssüf ki, bu, Rusiyada çox zəif təbliğ olunur.

***Tərcümə - Elçin Bayraml***

## Maksim Şevçenko: "ATƏT-in Minsk qrupu tarixi ədalət üçün heç bir iş görməyib"



"ATƏT-in Minsk qrupu tarixi ədalətin bərqərar olması üçün heç bir iş görməyib". Bunu "Report"un Rusiya müxbirinə rusiyalı politoloq, jurnalist, aparıcı və ictimai xadim Maksim Şevçenko Azərbaycan, Rusiya və Ermənistan XİN başçıları arasında Minskdə keçirilmiş üçtərəfli görüşü şərh edərkən bildirib.

"Danışmaq döyüşməkdən daha asandır. Mən hər zaman bu cür görüşlərə müsbət yanaşıram, xüsusilə də bu görüş Minskdə keçirilib. Bilirik ki, indiyədək ATƏT-in Minsk qrupu tarixi ədalətin bərqərar olması üçün heç bir iş görməyib. Azərbaycan Prezidenti İlham Əliyevin bu təşkilatın fəaliyyətinə verdiyi qiymət tamamilə doğrudur. Yəqin ki, Minskdə gələcəyin yeni bir təşəbbüsünə start vermək zamanı çatıb", - o deyib. Ekspertin sözlərinə görə, tərəflər dialoqun qurulmasına və münasibətlərin sağlamlaşdırılmasına ehtiyac duyurlar: "İnanıram və bilirəm ki, Azərbaycan və erməni xalqları sülh istəyirlər. Azərbaycan sülh, normal sərhədlərin, iqtisadi münasibətlərin və nəqliyyat dəhlizlərinin qurulması istiqamətində öz addımlarını atıb. İndi Ermənistanın növbəsidir".

M.Şevçenko vurğulayıb ki, hazırda dialoqun davam etdirilməsi üçün böyük perspektivlər mövcuddur: "Rusiyanın danışıqlarda iştirakı dialoqun mümkünlüyünə ümid verir. Çünki Rusiya Azərbaycanın sınaqdan çıxmış dostudur. Prezident Putin hər zaman sözünü tutur".

## Politoloqun baxışı: "Qoşulmama Hərəkatının yarandığı dövrdə iki sistem mübarizə aparırdı"



"Qoşulmama Hərəkatı elə bir dövrdə yaranmışdır ki, həmin dövrdə iki sistem - dünya sosializm sistemi ilə dünya kapitalizm sistemi bir-biri ilə çox sərt rəqabət aparırdı". Bu sözləri SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib. Onun sözlərinə görə, həmin dövrlər soyuq müharibə dövrü kimi səciyyələndirilir və iki dünyanın sosialist düşərgəsi ilə kapitalist düşərgəsi arasında mübarizənin tərəfdarı olmayan qüvvələr həmin dövrlərdə İndoneziyanın Banduq şəhərində toplandılar: "Orada bloklara Qoşulmama Hərəkatının prinsiplərini hazırladılar. Bu prinsiplərlə də Qoşulmama Hərəkatı yarandı. Onun birinci təsis konfransı Serbiyanın paytaxtı Belqrad şəhərində olub və deyərdim ki, BMT-dən sonra ikinci ən mühüm Hərəkatın bünövrəsi qoyuldu. Sonradan sosializm düşərgəsini təmsil edən Varşava bloku dağıdıldı və yalnız NATO qaldı. Əvvəl bloklara qoşulmayan ölkələr hərəkatı bu hadisələrdən sonra özlərini Qoşulmama Hərəkatı kimi təqdim etməyə başladılar. Bizim üçün əhəmiyyətlisi odur ki, Azərbaycanın Qoşulmama Hərəkatının sədridir. 2019-cu ildə Qoşulmama Hərəkatının Zirvə sammiti Bakı şəhərində keçirilmişdir və 2021-ci ilə qədər rəhbərliyini bizim ölkənin Prezidenti cənab İlham Əliyevə tapşırdılar. 2021-ci il 11 oktyabrda keçirilən Qoşulmama Hərəkatının Zirvə toplantısında İlham Əliyev çıxış edib. İlham Əliyevin çox uğurlu fəaliyyəti nəticəsində həm pandemiya ilə əlaqədar, həm də qoşulmayan ölkələrə xüsusi ilə onların içərisində kasıb ölkələrə maddi yardım, vaksin yardımı göstərilib. Bir ildən artıq olaraq Qoşulmama Hərəkatının sədrliyini cənab İlham Əliyevə tapşırıblar".

***Abutel İlhamqızı***

# "Xalq o siyasətin davam etdirilməsini alternativ siyasət olaraq qəbul etdi"

***"Cənab Prezident İlham Əliyevin 2003-cü il 15 oktyabrda Prezident vəzifəsinə seçilməsi və ondan sonrakı dövr Azərbaycanın inkişaf, tərəqqi, qələbə, zəfər tarixi kimi tariximizə yazılacaq. Məhz 15 oktyabr 2003-cü ildə Azərbaycan xalqı Ulu öndər Heydər Əliyevin siyasətinə səs verdi. Xalq o siyasətin davam etdirilməsini alternativ siyasət olaraq qəbul etdi və Ulu Öndərin ən layiqli davamçısı cənab İlham Əliyevə səs verərək onu Heydər Əliyev siyasətinin davam etdirilməsi üçün böyük vəzifəyə seçilməsini təmin etdi".***



Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib.Onun sözlərinə görə, cənab Prezident İlham Əliyev qarşıya qoyduğu bütün vəzifələri yerinə yetirmiş bir müdrik siyasətçi, öz xalqının layiqli lideri və Müzəffər Ordunun Ali Baş Komandanı kimi bizim tariximizə düşəcək: "Həmin, 2003-cü il seçkiləri dövründə və seçkilərdən sonra "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" söyləyən cənab İlham Əliyev öz fəaliyyəti ilə sübut etdi ki, O, təkcə 10 milyonluq Azərbaycan vətəndaşlarının deyil, 50 milyondan çox dünya azərbaycanlılarının həqiqi lideri, Prezidenti və Ali Baş Komandanıdır".Deputat sözlərinə belə davam edib: "Cənab İlham Əliyevin o vaxt qarşıya qoyduğu bütün məsələlər öz həllini tapıb. İlham Əliyev "600 min yeni iş yeri açacağam" söyləyəndə ekspertlərin çoxu buna inanmırdı. Amma, həmin dövrdən bu yana 2 milyon yarımdan çox yeni iş yeri açılmışdır ki, onun 2 milyondan çoxu daimi iş yerləridir"."Bütün Azərbaycanın regionlarını harmonik inkişaf etdirəcəyəm", "Neft kapitalını insan kapitalına çevirəcəyəm", "Azərbaycanı dünyanın nüfuzlu dövlətlərindən birinə çevirəcəyəm" deyən cənab İlham Əliyev dedikləri bütün sözlərin arxasında durdu və verdiyi bütün vədləri yerinə yetirmiş oldu.2004-cü ilin fevralında cənab Prezidentin imzası ilə qəbul olunan "Regionların sosial-iqtisadi inkişafı" Dövlət Proqramı Azərbaycanın bütün şəhərlərini, kəndlərini, qəsəbələrini inkişaf etmiş müasir bir görkəmə gətirməklə yanaşı güclü infrastruktur, o cümlədən, istehsal yönümlü sənayenin də qurulmasına gətirib çıxartdı: "Azərbaycan qısa müddət ərzində kosmos klubunun üzvü oldu və bu gün bizim kosmosda 3 süni peykimiz fəaliyyət göstərir".Azərbaycan qısa müddət ərzində BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilə bildi. Mədəniyyət, idman, humanitar sahələrdə böyük forumlara ev sahibliyi etdi və hal-hazırda da BMT-dən sonra dünyanın 2-ci ən nüfuzlu beynəlxalq təşkilatı olan Qoşulmama Hərəkatına da Azərbaycan sədrlik edir.Cənab Prezident İlham Əliyev Azərbaycanı bütün dünyada tanıtmaqla yanaşı Azərbaycanın siyasətini, siyasi xəttini də inkişaf etdirərək qarşıya qoyulan bütün məqsədlərə çatmış oldu. Orta aylıq əmək haqqı, pensiyalar, müavinətlər dəfələrlə yüksəldi və Azərbaycan bu gün yaşayış üçün minimum əmək haqqının, pensiyanın məbləğinə görə MDB məkanında ən öncül yerlərdən birini tutur.Eyni zamanda Azərbaycan öz ordusunu cənab Prezidentin rəhbərliyi altında yenidən qurdu və XXI əsrin müasir ən yüksək döyüş qabiliyyəti olan bir ordusunu yaratdı. 30 ildən çox işğal altında olan torpaqlarımızı ötən ilin 27 sentyabr və 10 noyabr tarixlərində 44 gün davam edən Zəfər müharibəsində işğaldan azad edərək Azərbaycanın ərazi bütövlüyünü təmin etmiş oldu. Biz, bu il müstəqilliyimizin 30 illiyini böyük qürur hissi ilə keçiririk. Çünki, müstəqilliyimizin 30 illiyini Azərbaycan ərazi bütövlüyünün təmin olunması şəraitində gözəl şəhərlərimizin, qəsəbələrimizin işğaldan azad olunması şəraitində həyata keçiririk. Bu gün böyük ümidlə gələcəyə baxaraq Zəngəzur dəhlizinin açılmasını gözləyirik və yəqin ki, yaxın vaxtlarda da bu məsələ də reallaşacaq, türk dünyasının 100 ildən artıq bir müddətdə quru əlaqəsi kəsilmiş coğrafiyanı cənab Prezident İlham Əliyevin qüdrətli əlləri, dahi siyasəti ilə bərpa edəcəyik. Bu təkcə nəqliyyat kommunikasiyaların açılması deyil, bu tarixin yenilənməsi, türk dünyasının bütövləşməsi və Azərbaycanın dünyada və regionda güclü bir oyunçu və mühüm söz sahibinə çevrilməsinin bir göstəricisidir.Eyni zamanda, şəhərlərimizi də müasir şəkildə quracağıq, işğaldan azad olunmuş torpaqlarımızda artıq Ağdamın, Zəngilanın, Füzulinin, Şuşanın ən müasir şəkildə qurulmasının baş planı hazırlanıb və təsdiq olunub. İşğaldan azad olunmuş torpaqlarımızda bizim 3 hava limanının tikilməsi, ora dəmir yolunun çəkilməsi, Kəlbəcərə yeni yolun, o cümlədən tunellərin tikintisi ilə müşayiət olunan müasir bir yolun çəkilməsi Dağlıq Qarabağın qısa müddət ərzində Azərbaycanın çiçəklənən bir cənnətə çevrilməsinin ifadəsidir və nümunələridir. Cənab Prezidentin rəhbərliyi altında Azərbaycan xalqı çox böyük bir tərəqqi yolu keçmiş oldu. Onun apardığı siyasət nəticəsində elmimiz, təhsilimiz, səhiyyəmiz, idmanımız, mədəniyyətimiz yeni-yeni nailiyyətlər əldə etdi, yeni-yeni zirvələrə yüksəlmiş oldu.Mən, müstəqilliyimizin 30 illiyində cənab Prezidentə yeni-yeni uğurlar, can sağlığı arzulayıram və hesab edirəm ki, artıq cənab Prezidentin qarşıya qoyduğu məsələlər yaxın vaxtlarda öz həllini tapacaq. Biz, nəinki Şərqi Zəngəzura, bütövlükdə tarixi torpaqlarımızın hamısına qayıtmaq imkanları əldə edəcəyik".

***Ayşən Vəli***

# İnsanlarda olan psixoloji yorğunluğun səbəbləri nələrdir? - MARAQLI FAKTLAR - ARAŞDIRMA



***Yaşadığımız dünya yorucu bir yerdir. Aşındırıcı. Nankor. Daimi səy tələb edən, lakin nadir hallarda mükafat verən bir yer. İçində yaşadığın üçün yorulursan. Bilirik ki, dünya sənə həmişə səxavətli olmayıb, qazandığından daha çox itiribsən. Yenidən cəhd etmək üçün motivasiya tapa bilmədiyiniz də bəllidir. Çünki həqiqət budur ki, hamımız yorulmuşuq.***



Hər birimiz. Müəyyən bir yaşda, hamımız ürəkaçan bir ruhun ordusunun üzvləriyik. Risk almalıyıq, amma hər şeyin yanlış gedəcəyindən qorxuruq. Axı, neçə dəfə yenidən başlaya biləcəyimizi bilmirik. Hamımız yorğunluğumuzda tək olduğumuzu düşünürük. Ancaq həqiqət budur ki, biz də bir-birimizdən xəstəyik - oynadığımız oyunlar, yalanlar, bir-birimizə təqdim etdiyimiz qeyri-müəyyənliklər və s.

Hamımız düşündüyümüzdən daha çox dayanıqlıyıq. Bu? danılmaz faktdır. Həmişə daha çox sevgi bəxş etmək, daha çox ümid etmək, daha çox hərəkət etmək qabiliyyətimiz var. Bu hərəkətlərin cavabını görə biləcəyimiz nöqtəyə çatana qədər getmirik. Dərhal nəticələr istəyirik və onları görmədikdə təslim oluruq. Yorğunluğun bizi dayandırmasına imkan veririk. Geridönüş almadığımız üçün əsəbiləşirik. Çünki heç kimin etiraf etməyi sevmədiyi bir həqiqət var: heç birimiz hər gün həvəslə yaşaya bilmərik. Hamımız yorğunuq. Bəzən ruhdan düşürük və bu duyğular sayəsində irəliləməyimizə icazə verilir. Yorğunluq, dəyişə bilməyəcəyiniz demək deyil.

Həyatın bəzi hissələri sükut içində yaşanır və hər gün etdiyimiz kiçik, diqqətli seçimlər nəticəsində yaranır. Bu dəyişikliklərin baş verməsi üçün özümüzə vaxt verməliyik.

Səhər yorğun oyanmaq, gündüz yaşanan yorğunluq, gündəlik vəzifələri yerinə yetirməkdə istəksizlik və ümumi tükənmə vəziyyəti. Çox vaxt yüksək iş tempindən və şəhər həyatının sürətindən qaynaqlandığı düşünülən bu simptomlar əslində ciddi xəstəliklərin əlaməti ola bilər.

Tiroiditdən xərçəngə qədər bir çox xəstəliyin əlaməti ola biləcək yorğunluğunuz getməsə, bunun altında yatan səbəb araşdırılmalıdır.

Yorğunluq, bir insanın gündəlik işini edərkən yorğunluq və qeyri -adekvatlıq hissi olaraq təyin edilə bilər. Bəzi insanlar yaşlarından tez hücumlara məruz qala və tənbəl ola bilər. Bunun tənbəllik, aşağı enerji və ya xəstəlik səbəbindən olub olmadığını müəyyən etmək çox vacibdir.

**Anemiya:** Yorğunluğun ən çox görülən xəstəlik qrupu anemiyadır. Çünki oksigen daşıyan hemoqlobinin olmaması, insanın yorğun və ləng hiss etməsinə səbəb olur. Bu halda, şəxs mütəxəssis həkim tərəfindən müayinə olunmalı və lazımi müayinələrdən keçməlidir. Lazımi müalicə planlaması aradan qaldırıldıqdan sonra yorğunluq hissinin yox olduğu görüləcək.

**Depressiya və stress:** Yorğunluğa səbəb olan xəstəliklər arasında depressiya kimi psixosomatik xəstəliklər ikinci yerdədir. Depressiya da insanların yorğun hiss etməsinə səbəb ola bilər.

**Tiroid xəstəlikləri:** Endokrin xəstəliklər, xüsusən hipotiroidizm də insanın özünü çox yorğun hiss etməsinə səbəb olur. Hətta hipotiroidizm olan insanların ətraflarında tənbəl kimi təsvir edildiyi söylənilir. Bunlar iş görmək istəməyən, ayağa qalxmaqda çətinlik çəkən və iş görmək gücünü hiss etməyən insanlardır. Yenə də endokrin xəstəlikləri olan diabet xəstələri də hər zaman yorulurlar. Bu insanlar özlərini yorğun və gücsüz hiss edirlər.

Xərçəng: Yorğunluq da bəzi erkən onkoloji xəstəliklərin əlaməti ola bilər. Xərçəng hüceyrələri xəstənin bütün bədən sistemlərini pozaraq yorğunluğa səbəb ola bilər. Məsələn, anemiyası varsa və ya pəhrizini pozarsa, yorğunluğa səbəb ola bilər. Ayrıca, şişlər insan orqanizminə nisbətən çox sürətli bir metabolik aktivliyə malikdir. Başqa sözlə, daha sürətli şəkər istehlak edər, insanın qan şəkərini aşağı salar və daha çox oksigen istehlak edərlər. Çünki şişlər sürətlə böyüyən toxumalardır. Ehtiyacları da çox yüksəkdir və insan onları özünə qarşı aparıb xərclədiyi üçün özünü yorğun hiss edə bilər.

**Ürək xəstəlikləri:** Yorğunluq ürək çatışmazlığının ən əhəmiyyətli əlamətlərindən biridir. Əslində ürək xəstəliyinin ən erkən əlamətlərindən biridir. İstər klapan lezyonu, istərsə də ürək -damar xəstəlikləri, bunlar ürəyin oksigen ehtiyacını ödəməsinə maneə törətdiyindən yorğunluğa səbəb olur. İnsan bir pilləkənlə qalxsa belə, yorulur, ayaqları kəsilir, nəfəsi kəsilir.

Yoluxucu xəstəliklər: Müxtəlif səbəblərdən bədəndə meydana gələn yoluxucu xəstəliklər də yorğunluğun ümumi səbəbləridir. Bunlar:

Hepatit (qaraciyərin iltihabı)
Ürəyin daxili astarının iltihabı
Ürək membranının iltihabı
Vərəm
Parazitar xəstəliklər
QİÇS kimi təsnif edilə bilər.

Metabolik xəstəliklər: Böyrək çatışmazlığı, qaraciyər çatışmazlığı, yüksək kalsium və kaliumun az olması kimi hallarda bədəndəki qan duzlarının və minerallarn azalması yorğunluğa səbəb ola bilər. Bu xəstəliklərin və şərtlərin erkən müalicəsi çox vacibdir.

Yuxu apnesi: Həyat keyfiyyətini pozan ən əhəmiyyətli problemlərdən biri olan yuxu apnesi də yorğunluğun əhəmiyyətli səbəblərindən biridir. Kifayət qədər vaxtda keyfiyyətli yuxuya getməyən insanlar, ertəsi gün çox yorğun hiss edəcəklər. Bu, gün ərzində bütün fəaliyyətlərdə əks olunur.

**Fiziki zəiflik:** Yorğunluq fiziki güc və kondisionerlə də çox bağlıdır. Güclü və möhkəm insan daha sonra yorulur. Yaşa görə sağlam qidalanma və nizamlı fiziki fəaliyyətlə əzələ gücünü artırmaq və saxlamaq yorğunluğu azalda bilər.





## Nə vaxt həkimə müraciət edilməlidir?

Əgər insan əvvəllər yorulmadan edə biləcəyi işləri etməkdən artıq bezibsə, həkimə müraciət etməli və yorğunluğun səbəbi araşdırılmalıdır. Əslində insanın özünə hörmətinin aşağı olması və özünə əvvəlki kimi qayğı göstərməməsi də problemin əlaməti ola bilər. Müvəqqəti yorğunluq çox vacib sayılmır, ancaq xroniki yorğunluğa olduqda ciddi yanaşılmalıdır.

## Enerjinizi düzgün istifadə etməyi öyrənin

İş və istirahət vaxtları düzgün tənzimlənməlidir. Qısa və tez -tez istirahət etməklə yorğunluğun yaranmasının qarşısını almaq olar. İş mühitinin yaxşı havalandırılması təmin edilməlidir. Çox isti və ya çox soyuq mühit bədənimizdə əlavə stress yaradır. Bədənin az miqdarda susuzlaşması belə maddələr mübadiləsini ləngidir. Bu səbəbdən gündə ən az 8-10 stəkan su içmək və mümkün qədər az qəhvə və çay içmək lazımdır.

*Ardı Səh. 11*

# İnsanlarda olan psixoloji yorğunluğun səbəbləri nələrdir? - MARAQLI FAKTLAR - ARAŞDIRMA

Əvvəli-Səh-10

Daimi yuxu və kifayət qədər və balanslı qidalanma güclü bir immunitet sistemi üçün vacibdir. Daimi 30 dəqiqəlik gəzinti bədən çəkisini tarazlaşdırmağa, sümük sağlamlığını qorumağa və yaxşılaşdırmağa kömək edir. Daimi məşqlə maddələr mübadiləsi sürətlənir və daha çox enerji əmələ gəlir. Ürək -damar sisteminin və tənəffüsün tənzimlənməsini və oksigenin toxumalara kifayət qədər daşınmasını təmin edir.

**SİA olaraq insanlarda olan yorğunluq, insanın həyatdan və özündən yorulmasının altında yatan səbəbləri araşdıraraq sosioloq, psixoloq və qida mütəxəssislərinin fikirlərini öyrəndik:**





**Psixoloq Aytən Ələkbərova:** ”İnsanların bəzən nəinki həyatdan, hətta özlərindən bezməsi nəticəsində də yorğunluq halları baş verir. Müəyyən elmi araşdırmalar var ki, insanların xarakterinə, xüsusiyyətlərinə görə bir neçə fərqli kateqoriyalara bölünür. O fərqli kateqoriyalar bundan ibarət olur ki, yəni, xasiyyətini bilməyən insanlar, öz cinsləri ilə və yaxud digər cinslər ilə münasibət qura bilməyən insanlar, daha müdrik olmaq istəyən insanlar. Bu tip insanların xarakterlərinə uyğun olmayacaq halları olur ki, bu zaman o, artıq həyatdan yorulur. Yəni, müəyyən təpkilər göstərirlər ki, ”Bu həyat artıq nəyə lazımdır?! Ümumiyyətlə, bu həyatda yaşamağa dəyərmi?!”.

Nümunəvi insanlar var ki, emosionaldırlar, qeyri-sabitliyi biraz az olur, ancaq digər xarakter xüsusiyyətləri baxımından yüksək olurlar. Yaşla birlikdə nümunəvi olmaq ehtimalı da mütənasib bir şəkildə artırır. Yəni, qadınların kişilərlə müqayisədə bu kateqoriyada olmaq ehtimalı daha yüksək olur.

Daha sonra utancaq tiplər var ki, hansı ki, emosional olaraq onlar da ancaq şəffaf və nizamsız deyillər. Ünsiyyətcil adam olmadıqlarını söyləmək mümkündür. Çünki bu insanların uyğunlaşmasında, hətta, buna psixologiyada onların bəzi halları var ki, mutizm deyilir, hansı ki, selektiv və total mutizm. Selektiv mutizmdə istədiyi insanla bölüşürlər, ünsiyyət qururlar, total mutizmdə isə heç kimlə.

Biri də var eqoist bir tip. Hansı ki, çox ünsiyyətcildirlər, amma şəffaflıq, uyğunlaşmaq, düzgünlük baxımından orta səviyyədədirlər. Yəni, araşdırmaya imza atan alimlərdən biri bu kateqoriyanın tərifini, bu insanlarla birlikdə vaxt keçirmək istəməzlər sözləri ilə verimişdir. Çünki, burada artıq müəyyən bir məqamlar var ki, insan mütləq şəkildə həyatını yəni, başqalarının sevməsi nəticəsində yox, özünün maraq dünyasını tapmaq nəticəsində sevməlidir.

Ümumi götürdükdə insanları həyatdan yoran ilk və son olaraq özlərinin öz xüsusiyyətləri və xarakterləridir”.





**Psixoloq Vüsalə Əmiraslanova:** ”İnsanların həyatdan yorulma səbəbləri müxtəlifdir. Ümumiyyətlə, yaş qrupuna görə bölünür. Bəzən, görürsünüz ki, yeniyetmələr bu sözü tez-tez deyir ki, ”mən bezmişəm, yorulmuşam”. Bu, daha çox onların təhsili ilə əlaqəlidir və yaxud da ailədə onların güclü nəzarətdə olmaları, ”daim dərsini oxu, hazırsanmı, dərsdə necə oldun” və s.

Uşaq o qədər dərslə yüklənir ki, o zaman yorulmağa başlayır və yaxud da müəyyən qadağalar olur ki, filan yerə gedə bilməzsən, filankəslə görüşə bilməzsən və s. uşaqlarda tez-tez yorulmalara səbəb ola bilir.

Amma böyüklərin həyatdan yorulmasının müxtəlif səbəbləri var. Güclü stress keçirə bilər və yaxud da ki, məsələn, kimi isə itirə, işləri istədiyi kimi alınmaya bilər və yaxud həm itki, həm ümumi ailədə yas mərasimi olandan sonra da bəzən insanlarda bu sindrom yaranır ki, ”hər şeydən bezmişəm, məndə heç nə alınmır və yaxud da həyat mənasızdır”.

Bəzən insanlar depressiyada olurlar, yəni yaz və payız depressiyasında. Bu zaman da onlarda həyatdan yorulma effekti çoxalır.

Ümumi olaraq yeni ana olmuş qadınlarda da bu olur. Onlar çox vaxt ”yorulmuşam, bezmişəm, uşağa baxa bilmirəm, hər şey sıxıcı gəlir” və s. deyirlər. Bu da hamiləlik sonrası depressiya sayılır. Yəni, ümumiyyətlə, hər bir insanda bu sindrom həyatı boyunca ola bilir. Bu nizamsız işlərin olması, ümumi maraqlarının, hədəflərinin olmaması ilə əlaqəlidir və yaxud da ki, keçirdiyi stresdən depressiya hallarından və yaxud da güclü itki ilə nəticələnən bir hadisə olubsa özünü göstərə bilər”.



**Sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova:** ”Yorğunluğu aradan qaldırmaq üçün birinci növbədə mütləq sağlam rejimli, balanslı qidalanmaq əsas məsələdir və fiziki aktivlik də vacibdir. Ondan başqa, səhər yeməyi yemək çox yaxşıdır. Səhər yeməyini yeməyən insanlar, adətən, gün ərzində yorğun, enerjisiz olurlar və mütəmadi olaraq baş ağrısından əziyyət çəkirlər. Ona görə, ilk növbədə, səhər yeməyi yemək lazımdır. Səhər yeməyində də bol vitaminli, qida dəyəri yüksək olan qidalara üstünlük versələr daha əla olar. Gün ərzində bir dəfə güclü səhər yeməyi yemək, digər yeməkləri az yemək və yaxud da ki, bəzən heç yemədən belə rahatlıqla gün keçirə bilər. Ona görə səhər yeməyində mütləq yumurtadan istifadə etmək lazımdır.

İnsanı ən çox gümrah edən həm də ki, çox faydalı qida hesab olunan yulaf əzməsini qeyd edə bilərəm. Yulafı da yaxşı olar ki, sağlam insanlar biraz gec bişən yulaflardan istifadə etsinlər. Çünki, gec bişən yulaflar daha az emal prosesindən keçib və tərkibi faydalıdır. Onu da bəzən sevməyənlər olur.

Qoz, fındıq, badam, kişmiş bu kimi əlavə edə bilərlər, daha dadlı olar. Eyni zamanda, bu saydığım qidalar da insanlarda yorğunluğu aradan qaldırır, gümrahlığı təmin edir. Bundan başqa antioksidant tərkibli meyvə-tərəvəz də çox faydalıdır. Bunlara mövsümi meyvə-tərəvəzləri göstərə bilərəm.

Hal-hazırda kivi həm immuniteti gücləndirir həm də yorğunluğu aradan qaldırır. Kök çox faydalıdır , yorğunluğu aradan qaldırmaq üçün mütləq şəkildə hər gün ən az 2-4, əgər heç bir allergik reaksiyası yoxdursa bundan da biraz artıra bilər qoz və badamdan mütləq istifadə etsin.

Bağırsaqların düzgün çalışması yorğunluq sindromunu aradan qaldırır. Adətən, qəbizliyi olan insanlarda hər zaman yorğunluqdan, narahatlıqdan şikayətlənirlər. Ona görə mütləq gün ərzində yeməklərinizin tərkibində tərəvəzləri də daxil etməli, göyərtilərdən istifadə etməliyik. Göyərtilərdən kərövüz əhvalruhiyyənin yaxşı olmasına faydalıdır. Deməli qan azlığı olan insanlar da xüsusilə yorğunluqdan əziyyət çəkir. Onlar da mütəmadi olaraq qida rasionunda qırmızı ətdən və ispanaqdan istifadə etsinlər.

İspanağı istifadə edərkən əsas məqamlardan biri ona baxsınlar ki, saplaqları qırmızı olsun, çünki, saplaqları qırmızı olmayan ispanaqlar geni dəyişdirilmiş və yaxud da ki düzgün şəkildə yetişdirilməmişdir. Süni kimyəvi maddələrlə yetişdirilmiş ispanaqdır ki, ondan biz faydalana bilmərik. Mütləq bunlardan da istifadə etsinlər”.





**Sağlam Cəmiyyət Hərəkatının sədri, sosioloq Lalə Mehralı:** ”Həyatdan bezən insanlar, adətən, meqapolisdə yaşayan insanlar olur. Qaynar həyatdan, stress dolu gündən bezərək həyatdan bezdiyini iddia edir. Tutalım, rahat şəraitdə olsa, mən rahatlığı, komfortu nəzərdə tutmuram, təbiət qoynunu nəzərdə tuturam. Qaynar həyatdan uzaq olsa, rahat axınına buraxsa hər şeyi məncə həyatdan yorulub bezməyinə ehtiyac qalmayacaq. Bu barədə heç düşünməyəcək. İnsanları yoran iş stressidir, böyük şəhərlərin qaynar həyat tərzidir, tələskənlikdir, gündəlik narahat rejimdir. Tutalım, yuxudan oyanırıq işə qaçırıq, işdən tutalım, uşaqların məktəbinə qaçırıq, uşaqları məktəbdən götürüb evə tələsirik, evdə axşamın tutalım, uşaqların dərsləri filan, ev qayğıları, sabah yenə eyni qayda yəni, həyatımız qaçaqaçda keçir. Rahatlıq deyilən şeyi artıq həyatımızdan uzaqlaşdırmışıq. Biz iş həyatına görə buna dözməli oluruq. Tutalım, daha yaxşı maaş almaq, daha yaxşı sosial rifah içində olmaq. Amma çox təəsüf ki, maaşın yüksəlməsini düşündükcə iş yükümüz bir o qədər çoxalır, həyatımız bir o qədər stressə bağlanır və bunun da nəticəsi olaraq həyatdan bir o qədər çox bezirik. Nə qədər az iş, nə qədər az əhalisi olan şəhər bir o qədər rahat həyat deməkdir”.

***Ayşən Vəli***

# Qəhrəmanlarımızın xatirəsi hər zaman yaddaşlarda qalacaq!

## İsmayıllıda şəhid Məmmədli Cəmil Habil oğlunun xatirəsi anılıb



İsmayıllı rayonunda müstəqil Azərbaycanın ərazi bütövlüyü və torpaqlarımızın işğaldan azad olunması uğrunda qəhrəmanlıqla döyüşərək həlak olmuş Cəmil Məmmədlinin ildönümü qeyd olunub. Mərasimdə Yeni Azərbaycan Partiyası İsmayıllı rayon təşkilatının sədrinin səlahiyyətlərini icra edən Sevil Əhmədova və partiya fəalları, rayon icra hakimiyyətinin və rayon ictimaiyyətinin nümayəndələri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələrinin üzvləri, qazilər, müharibə iştirakçıları iştirak ediblər. Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidimizin əziz xatirəsi ehtiramla anılıb, ruhuna dualar oxunub, döyüş yolu barədə söhbət açılıb, valideynlərinə başsağlığı verilib.

Şəhid Məmmədli Cəmil Habil oğlu 1999-cu il iyulun 28-də İsmayıllı rayonunda anadan olub. 2005-2016-cı illərdə Bakı şəhəri Səbail rayonu 163 saylı orta məktəbdə təhsil alıb, 2016-2020-ci illərdə Azərbaycan Texniki Universitetinin Metallurgiya fakültəsində ali təhsil alıb. Təhsil aldığı dövrdə ictimai fəallığı və vətənə xüsusi sevgisi ilə həmişə seçilib. Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş məktəblərarası "Mahir nişançı" adlı güllə atıcılığı turnirində III yerə layiq görülüb. 2020-ci ilin iyul ayında ali təhsilini başa vurduqdan sonra Cəmil hərbi xidmətə yollanıb. Sentyabrın 27-də Vətən müharibəsi başlayan zaman könüllü olaraq ön cəbhəyə göndərilməsini xahiş edib. Füzuli rayonunun işğaldan azad olunması uğrunda döyüşlərdə fəal iştirak edib. Oktyabr ayının 14-dən 15-nə keçən gecə Hadrut döyüşü (Füzuli rayonu) zamanı qəhrəmancasına vuruşaraq, şəhidlik zirvəsinə yüksəlib.

Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə Cəmil Habil oğlu Məmmədli "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

**ZÜMRÜD BAYRAMOVA**

## YAP Şabran rayon təşkilatının fəalları şəhidin anım mərasimində iştirak ediblər



15 oktyabr 2021-ci il tarixdə Şabran şəhəri Çölquşçu kəndində yaşayan Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş Ağabala Ağayev və Uzunboyad kəndində yaşayan Samir Abbasovun ildönümünə həsr olunmuş anım mərasimi keçirilmişdir. Mərasimdə Yap Şabran rayon təşkilatının sədr səlahiyyətlərini icra edən Mehdi Balabəyov, YAP Şabran rayon təşkilatının əməkdaşları və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişdir.



Tədbir çərçivəsində şəhidimizin məzarını ziyarət edib, məzarı üzərinə gül-çiçək dəstələri düzərək əziz xatirəsini böyük ehtiramla yad ediblər. YAP Şabran rayon təşkilatında bundan sonra da "Şəhid ailələrinə qayğı" aksiyası davam edəcək. Allah şəhidlərimizə rəhmət eləsin.

**Rəfiqə**

## Ağdaş rayonunda Ramil Səlimzadənin ildönümü mərasimi keçirilib



15 oktyabr 2021-ci il tarixində Ağdaş rayonunun Yuxarı Ağcayazı kəndində Vətən müharibəsi şəhidi Səlimzadə Ramil Raqif oğlunun şəhidlik zirvəsinə ucalmasının ildönümü münasibətilə mərasim keçirilib. Mərasimdə YAP Ağdaş rayon təşkilatının fəalları, icra hakimiyyətinin və rayon ictimaiyyətinin nümayəndələri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələrinin üzvləri, qazilər, müharibə iştirakçıları iştirak etmişlər. Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidimizin əziz xatirəsi ehtiramla anılmış, ruhuna dualar oxunmuş, döyüş yolu barədə söhbət açılmış, valideynlərinə başsağlığı verilmişdir.

Səlimzadə Ramil Raqif oğlu 1 may 1995-ci il tarixdə Ağdaş rayonunun Yuxarı Ağcayazı kəndində anadan olmuşdur. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda başlayan Vətən müharibəsi dövründə qismən səfərbərliklə cəbhəyə yollanan Ramil Səlimzadə Ağdərə-Tərtər istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlmiş, oktyabrın 15-də doğma kəndində dəfn edilmişdir. Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

**Z. BAYRAMOVA**

## YAP Qazax rayon təşkilatının fəalları dörd şəhidin məzarını ziyarət ediblər



**YAP** Qazax rayon təşkilatı Vətən müharibəsi şəhidi İsgəndərov Pərvin Pərviz oğlunun, şəhid Pənahov Elməddin Məqsəd oğlunun, şəhid Şükürov İlkin Aslan oğlunun və şəhid Abdullayev Taleh Temraz oğlunun şəhid olmalarının ildönümləri ilə əlaqədar məzarlarını ziyarət ediblər. Daha sonra ziyarətçilər şəhidlərin ailələrində olub, onların qayğıları ilə maraqlanmışlar.

**Rəfiqə**

## Zərdab rayonunda şəhid gizir Turan Muradovun məzarı və ailəsi ziyarət edilib

**YAP** Zərdab rayon təşkilatının sədri səlahiyyətlərini icra edən Pərvin Mahmudova, təşkilatın əməkdaşları və partiyanın bir qrup fəal üzvləri 2020-ci il oktyabrın 14-də torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalmış gizir Muradov Turan Vaqif oğlunun rayonun Körpükənd kəndi qəbiristanlığında olan məzarını ziyarət ediblər. Eyni zamanda, həmin qəbiristanlıqda dəfn olunmuş I və II Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalmış digər şəhidlərin də məzarları ziyarət olunaraq, ətrafında təmizlik və abadlıq işləri aparılmışdır. Sonra şəhidlərin məzarları üzərinə gül-çiçək dəstələri düzərək, ehtiramla yad edilib. Daha sonra ziyarətçilər şəhid Turan Muradovun ailəsini ziyarət ediblər. Ailənin ziyarəti zamanı Pərvin Mahmudova bildirib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində şərəfli Zəfər yolu keçib. Bu gün həmin şanlı Qələbənin qürurunu, sevincini yaşamaqla bərabər, torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüz uğrunda canından keçmiş qardaşlarımızın və övladlarımızın xatirəsini əziz tuturuq və tutmalıyıq. Şəhidin ailə üzvləri bu ziyarətlərin onlar üçün böyük təsəlli olduğunu vurğulayıb və göstərilən diqqətə görə, ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Qeyd edək ki, 1994-cu il dekabrın 15-də Zərdab rayonu Körpükənd kəndində anadan olmuş Muradov Turan Vaqif oğlu Suqovuşan qəsəbəsi uğrunda gedən döyüşlərdə, qəhrəmancasına döyüşərək şəhid olmuşdur. Turan Muradov Prezident İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.



**ZÜMRÜD**

## Qobustanda şəhid Röyal Qaçayevin ildönümü qeyd edilib




Yeni Azərbaycan Partiyası Qobustan rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Füzuli Gülaliyev, Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov, Milli Məclisin deputatı Şahin Seyidzadə, hüquq-mühafizə orqanlarının əməkdaşları rayonun Sündü kəndində şəhid Qaçayev Röyal Fərman oğlunun şəhadətinin ildönümü münasibətilə məzarını ziyarət ediblər.

Tədbir iştirakçıları Vətən uğrunda gedən döyüşlərdə torpaqlarımızı işğaldan azad edərək xalqımıza Qələbə sevinci bəxş edən, bu yolda canından, qanından keçən şəhid Röyal Qaçayevin məzarı önünə tər gül dəstələri düzüb, onun əziz xatirəsinə ehtiramlarını bildiriblər. Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə dualar oxunub. Sonra şəhidin ailəsi ziyarət edilib.

Ziyarət zamanı ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdən bəhs edilib. Bildirilib ki, şəhid Qaçayev Röyal Fərman oğlu kimi qəhrəmanlarımızın xatirəsi hər zaman yaddaşlarda qalacaq.

Qeyd edək ki, şəhadətə qovuşan Qaçayev Röyal Fərman oğlu ölümündən sonra Prezident İlham Əliyevin sərəncamlarına əsasən "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

**Rəfiqə**

# Əməl olunması gecikən 4-cü bənd!

*Gecikdikcə də bu kimi hadisələr qanunsuz erməni quldur dəstələrinin daha da həyasızlaşmasına səbəb olur!*



***Məlum olduğu kimi, oktyabrın 14-də saat 18:15 radələrində Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstələri növbəti dəfə terror aktı törədərək, snayper atəşi nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusunun həyatına son qoyublar. Əsgər Həmzəyev Əfqan Bəhram oğlu şəhid olub.***



Bu məlumat Azərbaycan Müdafiə Nazirliyi tərəfindən rəsmi şəkildə ictimaiyyətin diqqətinə çatdırılıb və vurğulanıb ki, Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq bu terror əməlini törətmiş qanunsuz erməni silahlı dəstələrinin neytrallaşdırılması (!) və qanun qarşısında cavab vermələrini təmin etmək üçün (!) qəti addımlar bundan sonra da davam etdiriləcəkdir.



Söz yox ki, buna kimsənin şübhəsi yoxdur. Lakin 2020-ci ilin noyabrın 10-da Qarabağda hərbi əməliyyatların dayandırılmasını əks etdirən üçtərəfli bəyanatın imzalanmasından sonra ötən bir ilə yaxın müddət ərzində həmin bəyanatın 4-cü bəndinin birmənalı və qəti şəkildə həyata keçirilməsi prosesi gecikir, Azərbaycanın suveren ərazilərində özlərinə çaqqal yuvası salmış qanunsuz erməni silahlıları sözügedən bənddəki müddəalara əməl etmirlər. Gecikdikcə də bu kimi hadisələr məhz erməni quldur dəstələrinin daha da həyasızlaşmasına səbəb olur!

Hadisə RSK-nin məsul olduğu ərazidə baş veribsə, demək ki, sülhməramlıların komandanlığı ciddi şəkildə, təxirəsalmadan bu insidenti araşdırmalıdır

Və təbii ki, baş verən hadisənin yalnız Azərbaycana qarşı deyil, eyni zamanda, Qarabağda atəşkəs rejiminə nəzarət edən Rusiya sülhməramlıları kontingentinin (RSK) fəaliyyətinə qarşı təxribat olduğunu qeyd etmək mümkündür.

Belə ki, baş vermiş növbəti insident də buna sübut kimi göstərilə bilər. Müdafiə Nazirliyinin Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstələri arasında baş vermiş atışma barədə yaydığı növbəti rəsmi məlumat da bu faktı kifayət qədər sübuta yetirməkdədir.

"Əvvəlcə qarşı tərəfin bir neçə sərxoş silahlısı digər yoldaşları ilə əlbəyaxa olub. Sonra onların olduqları yerdə partlayış müşahidə edilib. İlkin ehtimala görə, atışma nəticəsində qarşı tərəfdən ölən və yaralananlar var. Bildiririk ki, baş vermiş hadisəyə Azərbaycan Ordusunun heç bir aidiyyəti yoxdur", nazirlikdən bildirilib.

Hadisənin təfərrüatlarını araşdırarkən daha bir tələb ortaya çıxır: əgər hadisə RSK-nin məsul olduğu ərazidə baş veribsə, demək ki, sülhməramlıların komandanlığı ciddi şəkildə, təxirəsalmadan bu insidenti araşdırmalıdır.

Nə Rusiya, nə Fransa, nə ABŞ, nə İran, nə də ki, Hindistan!

O cümlədən, Xankəndidəki quldur erməni snayperinin də məsələsi dərhal nəzarətə alınmalı, həbs olunaraq Azərbaycan tərəfinə təhvil verilməlidir.

Eyni zamanda, sual yaranır: əslində, Ermənistan Qarabağdakı separatçıları vasitəsi ilə nəyə can atır? Azərbaycan Silahlı Qüvvələri yeni hərbi əməliyyatlara başlayaraq antiterror tətbiq etsin? Əgər belədirsə, həqiqətən də Ermənistan rəhbərliyi və onların saparatçı həşəratları bunu istəyirlərsə, elə sanmasınlar ki, Rusiya onların yerinə Azərbaycanla döyüşəcək, çünki artıq Kreml də rus əsgərinin erməni maraqlarına görə ölməsini istəmir.

Və əgər Azərbaycan Ordusu yenidən öz haqqından, hüququndan istifadə edərək öz dəmir yumruğu ilə separatçıların, terrorçuların, quldurların başlarını əzməyə başlayacaqsa, bax, onda heç kim revanşçıların tərəfində dayanmayacaq. Nə Rusiya, nə Fransa, nə ABŞ, nə İran, nə də ki, Hindistan - bunu bilməlidirlər, nə qədər ki, hələ də (!) gec deyil!

***R.Nurəddinoğlu***

REAL-INFO

# Tatoyanın həyasız ittihamları səngimir

*Ermənistanın ombudsmanının gündəlik işi-gücü yalan və şər-böhtanlı informasiyalar yaymaqdan ibarətdir*





Президент России | События Структура Видео и фото Документы Контакты Поиск

1. Объявляется о полном прекращении огня и всех военных действий в зоне нагорно-карабахского конфликта с 00 часов 00 минут по московскому времени 10 ноября 2020 года. Азербайджанская Республика и Республика Армения, далее именуемые Сторонами, останавливаются на занимаемых ими позициях.

2. Агдамский район возвращается Азербайджанской Республике до 20 ноября 2020 года.

3. Вдоль линии соприкосновения в Нагорном Карабахе и вдоль Лачинского коридора развёртывается миротворческий контингент Российской Федерации в количестве 1960 военнослужащих со стрелковым оружием, 90 бронетранспортёров, 380 единиц автомобильной и специальной техники.

Смотрите также

Заявление Президента Российской Федерации 10 ноября 2020 года

4. Миротворческий контингент Российской Федерации развёртывается параллельно с выводом армянских вооружённых сил. Срок пребывания миротворческого контингента Российской Федерации – 5 лет с автоматическим продлением на очередные 5-летние периоды, если ни одна из Сторон не заявит за 6 месяцев до истечения срока о намерении прекратить применение данного положения.

Davamlı olaraq Azərbaycana qarşı iftiralar səsləndirən Ermənistanın ombudsmanı Arman Tatoyan bu dəfə də əlində heç bir fakt və sübut olmadan, kimlərinsə saxta məlumatları əsasında guya Azərbaycan Silahlı Qüvvələrinin 13 oktyabr 2021-ci il, saat 00:00-dan 01:00-a qədər Zəngəzur vilayətinin Aravus kəndi istiqamətinə atəş açdıqlarını iddia edib. SİA xəbər verir ki, bu barədə yazan antifakte erməni saytı ombudsmanın sözlərinə istinad edərək həmin məlumatların kənd sakinləri tərəfindən Tatoyana verildiyini yazır.

"Söhbət Aravus kəndinin o hissəsindən gedir ki, Azərbaycanın Silahlı Qüvvələri yaşayış evlərindən bir neçə yüz metr aralıda yerləşiblər. Onların qarşısında isə birbaşa Ermənistanın silahlı qüvvələri yerləşərək, sakinlərin müdafiəsi və təhlükəsizliyini müdafiə etmək funksiyasını yerinə yetirir", deyə sözügedən təsdiqlənməmiş informasiyada bildirilir.

Hətta atəş açılarsa belə, iddia edilən insidentin səbəbkarının erməni tərəfi olduğunu iddia kimi irəli sürmək olar!

Bu məqamda qeyd etmək lazımdır ki, əgər Azərbaycan hərbçilərinin qarşısında erməni silahlı qüvvələri yerləşibsə, bu zaman hətta atəş açılarsa belə, iddia edilən insidentin səbəbkarının erməni tərəfi olduğunu iddia kimi irəli sürmək olar. Yəni ilk atəşin ermənilər tərəfindən açıldığını biz iddia edə, bu təxribata isə cavabın verildiyini bildirə bilərik. Daha dəqiq desək, dərhal Azərbaycan SQ-nin üzərinə qarayaxma və böhtan atmaqdansa, Arman Tatoyan yaxşı olardı ki, ona məlumat verən ermənilərin iddialarını yerində araşdırıb sonra ittihamlarla çıxış edərdi. Lakin göründüyü kimi, erməni həyasızlığı bu dəfə də özünü sübuta yetirib.

Tatoyan qeyd edib ki, atəşkəsə Tex kəndinin icma orqanlarının (?) Ermənistan respublikasının 1-ci ordu korpusunun, eləcə də Rusiya sərhəd xidmətinin nümayəndələrinin "olay" yerinə gəlmələrindən sonra son qoyulub. Artıq iztehza ilə bildirə bilərik ki, görünür, Tex kəndinin icma orqanları da artıq "hərbi-diplomatik" xarakterli situasiyalarda fəaliyyət göstərməyə başlayıb...







Tatoyanın erməni sakinlərinin həyati təhlükələr yaşamaları barədə sərsəm iddiaları isə boş havadan başqa heç nə deyil

Ancaq Tatoyan Azərbaycan tərəfini ittiham edərkən nədənsə unudur ki, məhz onun təmsil etdiyi təcavüzkar ölkəsi 30 il azərbaycanlıların yaşadıqları əraziləri işğalda saxlayıb, talan edib, viran qoyub, üstəlik, dinc sakinləri qətlə yetirib, normal, sülh şəraitini, həmçinin insanların hüquq və azadlıqlarını pozub və s. Bundan sonra isə onun guya erməni sakinlərinin həyati təhlükələr yaşamaları barədə sərsəm iddiaları isə boş havadan başqa heç nə deyil. Çünki Azərbaycan əsgəri dinc əhaliyə atəş açmır!

Bu da azmış kimi, erməni ombudsmanı Göyçə tərəfində də eyni "hadisələrin" yaşandığını iddia edir, üstəlik, bir az da irəliyə gedərək Azərbaycan hərbçilərinə qarşı alçaq, mümkün olmayan həyasız iftiralar atır və s.

Beləliklə, fakt budur ki, Azərbaycanın işğalçı Ermənistan üzərində 44 gün ərzində əldə etdiyi qələbəsindən sonra bu kimi sərsəm erməni başbilənləri hələ də hansısa "möcüzə" axtarışına çıxaraq bərqərar olmuş ədalətin yenidən sıradan çıxacağına ümidlər edir, bu xüsusda öz ənənəvi yalan və böhtanlarını, "əzabkeşlik" vasitələrini də işə salırlar. Ancaq unudurlar ki, onlar nə qədər belə cəhdlər göstərsələr də, artıq qatarları nəinki çoxdan gedib, hətta izi-tozu belə qalmayıb...

***Rövşən RƏSULOV***

# "Sərhədlərimizi qorumaq haqqımızdır"



***"Azərbaycan-İran münasibətlərində yaranmış müəyyən gərginlik bu gün nəinki ölkə vətəndaşlarının, eləcə də xarici ölkələrin də diqqət mərkəzindədir. Prezident cənab İlham Əliyevin İtaliyanın "La Repubblika" qəzetinə verdiyi müsahibəsindən də bu aydın hiss olunur." Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.***



Komitə sədri vurğulayıb ki, müxbirin "İranla bağlı nələr baş verir?", sualına dövlətimizin rəhbərinin aydın və əsaslandırılmış cavabı münasibətlərin korlanmasında bilavasitə cənub qonşularımızın günahkar olduğunu ortaya qoyur və bu gün İranın yürütdüyü siyasət Azərbaycanın milli maraqlarına ziddir.

"İran dövləti Azərbaycana düşmən olan və torpaqlarımızı uzun müddət işğal altında saxlayan, şəhər və kəndlərimizi, dini, tarixi, mədəni abidələrimizi məhv edən, xalqımızın başına olmazın müsibətləri gətirən, soyqrımlar törədən Ermənistanla daimi dostluq və qardaşlıq münasibətində olubdur. Təcavüzkar ölkəni ərzaqla, yanacaqla, hətta silah-sursatla təchiz edib, düşmənə təcavüzkar əməllərini həyata keçirmək üçün imkanlar yaradıbdır. Azərbaycan qonşuluq münasibətlərini nəzərə alaraq uzun müddət bu hallarla barışıb və tarixi qələbəmizdən, torpaqlarımızın işğaldan azad edilməsindən sonra bu əməllərə son qoyulacağına ümidlər bəsləyibdir. Təəssüflər olsun ki, İran dövləti Azərbaycanın ümidlərini doğrultmayıb, əksinə Ermənistana maddi-mənəvi dəstəyini açıq-aşkar davam etdiribdir. Dəfələrlə xatırlanmasına baxmayaraq, İran öz yolundan dönməyibdir və belə olan halda Azərbaycan bu mənfur niyyətlərin qarşısını almaq üçün lazımi tədbirlərə əl atıbdır. Sərhədlərimizin mühafizəsi gücləndirilib, müəyyən ərazilərdə kömrük məntəqələri qurulubdur.

Cənab İlham Əliyev məsələlərə aydınlıq gətirərkən bunları bildirib: "Ermənistanın bəzi sərhədləri arasındakı yol Azərbaycan ərazisindən keçir. Bu yoldan Qarabağa, bizim ərazimizə malların qeyri-qanuni daşınmasında istifadə olunduğunu görməyə başladıq. Bu qəbuledilməzdir. Biz öz sərhədlərimizə hörmətlə yanaşılmasını tələb edirik. Biz hər hansı digər ölkənin sərhədlərini qeyri - qanuni olaraq pozmuruq. Beləliklə, mesajımız çox sadə idi-dayandırın bunu".

Ölkə rəhbərinin bildirdiyi kimi bunun üçün incimeyə, münasibətləri pozmağa əsas yoxdur. Çünki Azərbaycan öz sərhədlərinin sahibidir və sərhədləri daxilində kiminsə ağalıq etməsinə yol verə bilməz. İşğal dövründə İran yol verdiyi özbaşınalıqları indi dayandırmağa borcludur və məcburdur. Başqa yol yoxdur", deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# "Müharibə olmayacaq bəs onda biz neyləyək?"

***Belə görünür ki, "İranla Azərbaycan arasında müharibə ehtimalı azalır". Heç yeridir? Ermənilər neçə müddətdir həsrətlə "Azərbaycan-İran müharibəsinin" başlanmasını gözləyirlər. Bu da başlayıb ki, iki ölkə arasındakı gərgin münasibətlər artıq səngiyir. Yəni münasibətlər düzəlir…***

Axı, özünü erməni hərbi eksperti kimi təqdim edən Hayk Naqapetyan bunları deyib, ermənilərin həsrətli arzularını onların gözündə qoymaqda məqsədi nədir? Hələ bir utanmadan dediklərinə əsas da gətirib deyir ki, guya bu dəqiqə İrana müharibə lazım deyil. Çünki bu gün Çin İran iqtisadiyyatının inkişafına xeyli investisiya yatırıb. Bu, İranın qarşıdakı 20 il üçün sürətli inkişafını təmin edəcək. Məhz buna görə də, İran bütün bunları bərbad etmək istəmir.

Maraqlıdır ki, Hayk Naqapetyan müharibəni başlama ehtimalının az olduğunu deməklə ermənilərin "könüllərini qırdığını" anlayıb səhvini düzəltməyə də çalışır. Deyir ki, bəlkə də müharibənin başlamaq şansı var, amma çox azdır. Sonra da deyir ki, müharibənin başlamasını istəməyən Rusiyadır. Çünki Rusiya da başa düşür ki, bu müharibə başlasa, qisa vaxtda onun öz ərazisinə sıçraya bilər. Bu isə, bölgəni partlatmaq, elə Rusiyanın da payının olduğu bütün investisiya layihə və enerji proqramlarının alt-üst olması deməkdir.

Deyim ki, bunları deməklə ermənilərin qəsdinə dayandığının fərqinə varmayan Hayk Naqapetyan elə bil özü erməni deyilmiş. Hələ bir utanıb-bozarmadan bölgədə müharibə ehtimalının azalaraq artıq sıfıra bərabər olduğunu və bunun da əsas səbəbkarının yenə də Rusiya olduğunu deməklə öz həmvətənlərinin dədələrinə od qoyduğunu qanmır.

Hayk isə öz işindədir, yenidən döşəyir və bu dəfə də deyir ki, sən demə, Çinin də burada müharibəyə ehtiyacı yoxmuş, çünki bu regionda müharibənin başlaması "Bir Kəmər - Bir Yol" proqramının icrası çərçivəsində Çinin də maraqlarını şübhə altına ala bilər. Üstəlik, Çinlə Rusiya arasındakı strateji müttəfiqliyi və Çin ilə İran arasındakı iqtisadi strateji müttəfiqi də nəzərə almaq lazımdır .

Ey gidi dünya! İndi gəl, kiməsə ümid elə  erməni kimi vəfalı bir tərəfdaşı bütün layihələrdən kənarda qoymaq bəs deyilmiş, indi də qapı dalında qoyurlar. Məhz elə buna görədir ki, deyəsən, bu dəfə ermənilər "ciddiləşirlər" və onlara körük basmağa əlyeri qoymayan Hayk Naqapetyana ciddi xarakterli belə bir sual ünvanlayırlar: "  bəs, belə olan halda, biz indi neyləyək?

***Ağasəf Babayev***



# Əməkdaşlıq Memorandumu imzalanıb

Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın aparıcı telekommunikasiya operatorları Transxəzər Fiber-Optik Kabel Xətti (TranCaspian Fiber Optic - TCFO) layihəsi çərçivəsində əməkdaşlıq edəcəklər. SİA-nın məlumatına görə, tərəflər bununla bağlı Qazaxıstanın paytaxtı Nur-Sultanda keçirilmiş "MDB GCCM 2021" konfransı zamanı iki Memorandum imzalayıblar. Onlardan biri müvafiq olaraq Qazaxıstan, Azərbaycan və Qırğızıstanı təmsil edən "Transtelecom" ASC, "AzerTelecom" MMC və "El-Kat" MMC telekommunikasiya operatorları arasında, digəri isə müvafiq olaraq Qazaxıstan, Azərbaycan və Özbəkistanı təmsil edən "Transtelecom" ASC, "AzerTelecom" MMC və "Telegraph 42 Management Gmbh" MMC arasında imzalanıb.

"AzerTelecom" MMC-nin Direktorlar Şurasının sədri Fuad Allahverdiyevin sözlərinə görə, Transxəzər Fiber-Optik (TransCaspian Fiber Optic - TCFO) Kabel xətti layihəsinin həyata keçirilməsi təkcə Azərbaycanla Qazaxıstan arasında deyil, eyni zamanda Mərkəzi Asiya ölkələri arasında əməkdaşlığın inkişafı üçün yeni imkanlar açır. "İnanırıq ki, bütün dünyada internet istehlakının artması fonunda bu irimiqyaslı rəqəmsal layihə regionda telekommunikasiya sənayesinin inkişafına, eləcə də ölkələr və şirkətlər arasında işgüzar əlaqələrin genişlənməsinə töhfə verəcək"- deyə Fuad Allahverdiyev bildirib.

"Transxəzər Fiber-Optik Kabel Xətti rəqəmsal infrastruktur sahəsində möhtəşəm layihədir. Bu gün biz bu layihəni mövcud yerüstü marşrutlara yeganə alternativ olaraq görürük. Əminəm ki, "AzerTelecom"-dan olan tərəfdaşlarımızla birgə xidmətlərin göstərilməsi üzrə yeni bir səviyyəyə qalxa biləcək, Avropa ilə Asiya arasında uzun zamandır gözlənilən marşrutların şaxələndirilməsini təmin edə biləcəyik" - deyə "Transtelecom" ASC -nin Transxəzər Fiber-Optik layihəsinin rəhbəri Qalixan Məhəmməd-Rəhimov qeyd edib.



Xatırladaq ki, Transxəzər Fiber-Optik (TCFO) Kabel xətti layihəsi Qazaxıstanla Azərbaycan arasında Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xəttinin çəkilməsini nəzərdə tutan genişmiqyaslı layihədir. Bu layihə Avropa ilə Asiya arasında məlumat mübadiləsi ehtiyaclarını ödənəyəcək regionun bütün ölkələri üçün strateji əhəmiyyətli bir layihədir. Belə bir magistral kabel xəttinin çəkilməsi Avropa ilə Asiyanı birləşdirən "Rəqəmsal İpək Yolu"nu (Digital Silk Way) formalaşdıracaq.

"AzerTelecom" MMC haqqında: "AzerTelecom" Azərbaycanın aparıcı topdansatış telekommunikasiya operatorudur. Şirkət müxtəlif sahələrdə və ölkələrdə fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir. "AzerTelecom" Azərbaycanı beynəlxalq internet şəbəkəsi ilə birləşdirir və telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir.

"Transtelekom" ASC haqqında: Qazaxıstan Respublikasının ən böyük rabitə operatorlarından biridir. Şirkəti geniş telekommunikasiya xidmətləri, habelə İT, rabitə, avtomatlaşdırma və energetika sahəsində rəqəmsallaşma və sistem inteqrasiyası xidmətləri üzrə ixtisaslaşmışdır.

# Uşaqları məktəbdə virusdan necə qorumalı? - HƏKİM İZAH ETDİ

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.*

**Fəsil dəyişəndə qrip yayılması normaldır, amma uşaqları bundan qorumaq üçün bəzi məsləhətlərə əməl etməliyik**

Qlobal iqlim dəyişiklikləri nəticəsində yay fəslindən payıza keçiddə havaların ziddiyyətli keçməsi uşaqlar arasında qrip və sair xəstəliklərin yayılmasına səbəb olub. Uşaqların immun sistemi hələ tam formalaşmadığı və bəzi infeksion xəstəliklərə qarşı zəif olduğu üçün onlar tez yoluxurlar. Buna görə də həkimlər valideynlərə məsləhət görür ki, övladlarına gigiyena məsələsində təməl məlumatlar versin.







### Məktəbdə uşaqların əlini sabunla yumasına şərait olmalıdır

Pediatr Şəhla Quliyeva soyuqdəymə, qrip, qızdırma əlamətləri olan uşağın məktəbə göndərilməməsini məsləhət görür: ”Bir uşaq sinifdə 20-25 uşağın qripə yoluxmasına səbəb ola bilər, hər uşaq bir ailədən gəlir, evə qayıdanda o uşaqların hərəsi ailədə 1 nəfəri yoluxdursa, görün nə qədər insan infeksiya daşıyıcısı olur.

Xüsusilə 1-ci sinfə başlayan uşaqlara diqqət eləmək vacibdir, çantalarına salfetlər qoymaq, teztez əllərini silməyi və yumağı başa salmaq lazımdır. Yaxşı olar ki, məktəblərdə uşaqlara əllərini sabunla yumaq üçün imkanlar yaradılsın.

Uşaqlar anlamalıdır ki, sinif yoldaşlarının su qabından su içmək, dəsmalı ilə əlini silmək olmaz, bu əşyalar fərdidir və gigiyenik baxımdan başqasının istifadə etməsi düzgün deyil”.

### Sağlamlıq kağızını rüşvətlə almağa çalışırlar

Həkim deyir ki, infeksiyanın yayılmasına məhz bu amillər səbəb olur: ”Uşaqlara gigiyena qaydalarını vaxtında başa salmaq lazımdır, tutaq ki, evdə bacısının su içdiyi stəkandan su içən uşaq bunu məktəbdə parta yoldaşı ilə də təkrarlayacaq. Məhz bu səbəbdən də tədris ili başlayan ərəfədə infeksion xəstəliklər 2 dəfə artıq müşahidə edilir”.







Müsahibimiz məsləhət görür ki, məktəbli övladı olan valideynlər uşaqları mütamadi olaraq qeydiyyatda olduğu poliklinikalarda müayinədən keçirsin: ”Müayinə cəmi 10 dəqiqə vaxt aparacaq, amma uşaqların səhhəti üçün vacibdir. Bir çox valideyn övladı məktəbə başlayanda təhsil müəssisəsinin tələb etdiyi sağlamlıq kağızını rüşvətlə almaq istəyir, ”həkim, 5-10 manat verim, bir şey yaz ver, tələsirəm” deyib uşağı müayinələrdən keçirmir. Vicdanı olan həkim razılıq vermir, bəzən isə valideyn elə istədiyi formada arayışı alıb uşağı məktəbə göndərir. Nəticədə uşaq hansısa bir virusu bütün məktəbə yaya bilir və yaxud əksinə, özünün immun sistemi o qədər zəif olur ki, məktəbə getdiyi ilk günlərdəcə xəstələnir”.

### Uşaq qrup olanda tələsik antibiotik verməyin

Həkim bir vacib məsələni də diqqətə çatdırdı: ”Bir çox valideyn məktəbli övladı soyuğa yoluxanda, qrip olanda öz bildiyi formada antibiotik alıb tətbiq edir. Olduqca ciddi təhlükə yarada bilər, bunu etməyin. Uşaq xəstələnə bilər, bu, normaldır. Amma öskürən kimi, bir az istiliyi qalxan kimi dərman tətbiq etmək olmaz. Ən az 48 saat gözləmək lazımdır. Antibiotik təyinini mütləq peşəkar həkim etməlidir, aptekdə əczaçının məsləhəti ilə övladınıza antibiotik verməyin. Sağalanadək məktəbə getməsin, çünki sinif yoldaşlarını da yoluxduraraq virusun yayılmasına səbəb ola bilər. Evdə dincəlmək, bol-bol maye qəbul etmək xəstəliyi daha tez sağaldır”.

Uşaqlara gigiyena qaydalarını ən xırda detallarına qədər anlatmağın vacibliyindən bəhs edən Şəhla Quliyeva deyir: ”Uşaqların immun sistemi tam formalaşmadığı üçün məktəbdə xəstələnmə ehtimalları çoxdur, yoluxmanı minimuma endirmək üçün qidalanmasına diqqət etmək vacibdir, ağartı məhsulları, meyvə menyularında üstünlük təşkil etməlidir. Məktəb çantasına evdə bişmiş şirniyyat və meyvə qoymaq lazımdır, uşaqları mağazadan alınmış hazır qidalardan uzaq saxlayın. Meyvə olmayan mövsümlərdə meyvə quruları yesinlər. Uşağa meyvə verməyən valideynlər var ki, gəlib vitamin yazmağımızı istəyirlər. Axı təbiətdə bu qədər vitamin anbarı var”.

### DİQQƏT: Uşaqlar arasında virus infeksiyası ən çox bu səbəblərdən yaranır:

-Əllərini gec-gec yuması
-Çirkli əşyaları ağızlarına alması
-Başqasının su qabından su içməsi
-Sabundan az istifadə etməsi
-Keyfiyyətsiz məktəb ləvazimatları
-İmmun sisteminin zəif olması

Uşaqların hər gün ən az 3 dəfə əllərini sabunla yumasına diqqət etmək lazımdır deyən həkim valideynləri, xüsusilə də, məktəbli uşaqları dərsdən gələn kimi barmaqlarının aralarını diqqətlə sabunla yuması barədə məlumatlandırmağı məsləhət görür. İmmunitetlərini güclü saxlamalı, çox istiyə öyrətməməli, onlara yalnız sağlam və təbii qidalar verilməlidir. Uşaq olan otağın havası tez-tez dəyişilməlidir.

Əgər bütün valideynlər özləri bu qaydalara riayət etsələr və uşaqlarını belə böyütsələr bütün hamı infeksion xəstəliklərdən uzaq olar. Bunlar isə əməl edilməsi çox asan və çox vacib olan qaydalardır.

***Lalə Mehralı***

SON SƏHİFƏ
Səs
16 oktyabr
2021-ci il

# Ölüm riskini azaldan məhsulun adı açıqlandı



***İran və Kanadadan olan alimlər qoz-fındıq, bitki yağları və tumlarında olan yağ turşularının müntəzəm istifadəsinin ölüm riskini azaldaraq, ömrü uzatdığını aşkar ediblər. Tədqiqatın nəticələri "BMJ" jurnalında dərc edilib.***

Tədqiqatın müəllifləri 1991-2021-ci illər ərzində 40-dan artıq təhlil apararaq, omeqa-3 doymamış yağ turşuları sinfinə aid olan alfa-linolen turşusunun soya, qoz-fındıq və bitki yağlarının tərkibində olduğunu sübut ediblər. Onlar bildiriblər ki, bu məhsullar ürək-damar xəstəlikləri,ürəyin işemik xəstəliyi və digər müxtəlif səbəblərdən vaxtsız ölümün qarşısını 10,8-11 % alır.

Lakin müəlliflər omeqa-3 yağ turşularının sağlamlığa faydalı təsirinə baxmayaraq, müəyyən xərçəng inkişaf riski səbəbiylə onların qəbul miqdarı barədə ehtiyatlı olmağa çağırırlar.Onlar qeyd edirlər ki, bu riskin nə qədər yüksək olduğunu qiymətləndirmək üçün əlavə araşdırmalara ehtiyac var.

# Messi hakimi topa tutdu: O bunu qəsdən edir



***Lionel Messi DÇ-2022-nin Argentina - Peru oyununun (1:0) baş hakimi Vilton Sampayonun işindən narazı qalıb. Qol.az-ın "Marca" nəşrinə istinadən verdiyi xəbərə görə, Argentina millisinin kapitanının fikrincə, Sampayo Perunun lehinə şübhəli qərarlar verib. Matçdan sonra Messinin Sampayonun ünvanına bu sözləri dediyi bildirilir: "Hər dəfə o, bizim oyunumuzu idarə edəndə bənzər səhvlər edir. Deyəsən, o, qəsdən bu səhvlərə yol verir". Əlavə edək ki, bugünə qədər bir neçə argentinalı futbolçu braziliyalı Sampayonun onlara qarşı qərəzli hakimlik etdiyini bildirib.***

# Evdən qızıl əşyaları oğurlayan qadın tutulub



***Ağdaş rayonunun Kükəl kəndindəki evlərin birindən 3000 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Ərəb kənd sakini F.Paşayeva Ağdaş Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb.***

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, F.Paşayevanın sentyabrın 23-də daha bir evdən 3100 manat dəyərində qızıl-zinət əşyaları oğurlaması da müəyyən edilib. Faktlarla bağlı rayon polis şöbəsi tərəfindən araşdırma aparılır.

# Azərbaycanda vərəm ən çox hansı bölgələrdə yayılıb?



***Azərbaycanda vərəmə ən çox yoluxma qeydə alınan bölgələr açıqlanıb. "İki sahil" xəbər verir ki, bu barədə Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru Həqiqət Qədirova məlumat verib. O bildirib ki, vərəmə yoluxanların əksəriyyəti Bakı və Abşeron sakinləridir:***

"Lakin əhalinin 100 min nəfərinə olan vərəmlə xəstənmə göstəricisi 2020-ci il üzrə Bərdə, Siyəzən, Xaçmaz, Göyçay, Quba, Kürdəmir, Şabran, Yevlax və digər rayonlarda daha yüksək olub".

Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatının hesabatına görə, 2020-ci ildə 1,5 milyon insan vərəmdan dünyasını dəyişib. Proqnozlara görə, 2021-2022-ci illərdə bu xəstəliyə tutulanların sayı daha da artacaq. Hazırda dünyada 4,1 milyon insan vərəmdən əziyyət çəkir. Bu rəqəm 2019-cu illə müqayisədə 2,9 milyon nəfər çoxdur. Təşkilatın açıqlamalarına əsasən vərəmlə mübarizəyə ayrılan qlobal xərclər 5,8 milyard dollardan 5,3 milyard dollara qədər azalıb. Bu da 2022-ci ilə qədər qarşıya qoyulan 13 milyard dollarlıq qlobal hədəfin yarısından da azdır.

Xatırladaq ki, Azərbaycanda Nazirlər Kabinetinin qərarı ilə 2011-2015 və 2016-2020-ci illərdə vərəmlə mübarizə üzrə tədbirlər planı icra edilib.

## Elan

**Ağazadə Ağa Elçin oğluna məxsus 90 FP 124 nömrə nişanlı avtomobilə aid AD N 318342 saylı Azərbaycan Respublikası Nəqliyyat Vasitəsinin Qeydiyyat Şəhadətnaməsi, AZE N15632621 saylı Azərbaycan Respublikası vətəndaşının Şəxsiyyət vəsiqəsi, ZH 008808 sayı Zabit vəsiqəsi və AD 224714 saylı Azərbaycan Respublikasının sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

# Sinoptiklərdən xəbərdarlıq: Gələn həftə qar yağacaq

Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, Bakıda və Abşeron yarımadasında oktyabrın 18-dən 21-i gündüzədək fasilələrlə yağış yağacağı gözlənilir. Belə ki, oktyabrın 20-də gündüz şimal-qərb küləyi əsəcək, sürəti saniyədə 15-18, arabir 20-23 metrədək güclənəcək. Havanın temperaturu oktyabrın 20-21-də ötən günlərlə müqayisədə tədricən 3-6° enəcək.

Azərbaycanın rayonlarında oktyabrın 18-dən 21-i gündüzədək hava şəraitinin qeyri-sabit keçəcəyi, bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı proqnozlaşdırılır. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir 20-25 metr/saniyəyədək güclənəcək. Çaylarda sululuğun artacağı, bəzi dağ çaylarından qısamüddətli sel keçəcəyi istisna olunmur. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 4-7° enəcək.



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**